**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "Uşaq əməyindən istifadənin sosial-iqtisadi aspektləri" mövzusunda

## MAGİSTR DİSSERTASİYASI

**Arzu Əliyeva Asif**

**BAKI – 2020**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh**
**____________________imza**
**"___" ____________ 2020-ci il**

**"Uşaq əməyindən istifadənin sosial-iqtisadi aspektləri"**

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı:** 060404, "İqtisadiyyat"

**İxtisaslaşma:** Əməyin iqtisadiyyatı

**Qrup:** 92

**Magistrant:**
**Arzu Əliyeva Asif qızı**
**__________________imza**

**Elmi rəhbər:**
**i.ü.f.d.,dos. Həmidov Həmid İnsaf oğlu**
**____________________ imza**

**Proqram rəhbəri**
**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab**
**____________________ imza**

**Kafedra müdiri**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi**
**____________________ imza**

**Bakı - 2020**

**Elm Andı**

Mən, Əliyeva Arzu Asif qızı and içirəm ki, "Uşaq əməyindən istifadənin sosial-iqtisadi aspektləri" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# “UŞAQ ƏMƏYİNDƏN İSTİFADƏNİN SOSİAL-İQTİSADİ ASPEKTLƏRİ”

## XÜLASƏ


**Tədqiqatın aktuallığı: Uşaq əməyindən istifadənin qarşısını almaq hazırda dünya ölkələrini düşündürən ən başlıca məsələlərdəndir. Uşaqların vaxtından əvvəl fiziki əməyə cəlb olunması onların sağlamlığına, inkişafına böyük zərbə vurur. Bu problem hazırda dünyada aktual məsələlərdəndir.**

**Tədqiqatın məqsədi: Tədqiqatın məqsədini uşaq əməyindən istifadənin sosial-iqtisadi aspektlərinin dünya və Azərbaycan üzrə təhlil etmək təşkil edir.**

**İstifadə olunmuş tədqiqat metodları: Dissertasiya mövzusunda tədqiqat işinin tədqiqi prosesində iqtisadi-statistik təhlil, qruplaşdırma və müqayisə, müşahidə, məntiqi və elmi ümumiləşdirmə, müqayisəli və sistemli təhlil, analiz və s. metodlardan istifadə edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Tədqiqatın informasiya bazası olaraq mövzu ilə bağlı dərsliklərdən, məqalə və elmi tədqiqat məlumatlarından, internet resurslarından, rəsmi sayt məlumatlarından və s. istifadə olunmuşdur.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqat mövzusunun mükəmməl şəkildə tədqiq və təhlil edilməsi üçün məlumat bazasının kifayət qədər olmaması məhdudiyyət təşkil edir. Xüsusilə də Azərbaycanda uşaq əməyindən istifadə ilə bağlı tədqiqat aparılması üçün kifayət qədər elmi tədqiqat işləri, məqalə məlumatları və s. olmaması məhdudiyyət yaradır.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Azərbaycan Hökuməti uşaqların hüquqlarının müdafiəsi ilə bağlı gələcəkdə görüləcək bir sıra tədbirləri artıq müəyyən etmişdir. Bununla əlaqədar, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasına əsasən, Uşaq Strategiyası hazırlanıb, təsdiq üçün təqdim olunmuşdur. Uşaq Məcəlləsi ilə bağlı müəyyən iş görülməkdədir.**

**Nəticələrin istafadə oluna biləcəyi sahələr: Dissertasiya işində formalaşdırılmış nəticə və təkliflərin hökumət orqanları tərəfindən uşaq əməyindən istifadənin qarşısının alınması ilə bağlı tədbirlərdə istifadə oluna bilməsidir.**

**Açar sözlər: uşaq əməyi, uşaq istismarı, uşaq alveri**

**“SOCIO-ECONOMIC ASPECTS OF CHILD LABOR”**


**SUMMARY**

**The actuality of the subject: Preventing the use of child labor is one of the main concerns of the world today. Premature involvement of children in physical labor has a great impact on their health and development. This problem is one of the most pressing issues in the world today.**

**Purpose and tasks of the research: The aim of the study is to analyze the socio-economic aspects of child labor in the world and in Azerbaijan.**

**Used research methods: In the process of research work on the dissertation, economic-statistical analysis, grouping and comparison, observation, logical and scientific generalization, comparative and systematic analysis, analysis, etc. methods were used.**

**The information base of the research: The information base of the research includes textbooks, articles and scientific research information, Internet resources, official website information, etc. was used.**

**Restrictions of research: The limitation is that the database is not sufficient for the perfect research and analysis of the research topic. In particular, there is enough scientific research, article information, etc. to conduct research on the use of child labor in Azerbaijan. lack creates limitations.**

**The novelty and practical results of investigation: Countries around the world have already identified future measures to protect the rights of the child. According to the Development Concept "Azerbaijan 2020: vision for the future", the Children's Strategy has been developed and submitted for approval in our country. Some work is being done on the Children's Code.**

**Scientific-practical significance of results: The results and recommendations of the dissertation can be used by government agencies in measures to prevent the use of child labor.**



**Key words: child labor, child exploitation, child trafficking**

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **BƏT** | Beynəlxalq Əmək Təşkilatı |
| **BİT** | Beynəlxalq İş Təşkilatı |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **HİV** | Human İmmunodeficiency Viruses |
| **İİV** | İnsan İmmun Çatışmazlığı |
| **İSESCO** | Islamic Educational, Scientific and Cultural Organization |
| **QHT** | Qeyri Hökumət Təşkilatı |
| **QİÇS** | Qazanılmış İmmun Çatışmazlığı Sindromu |
| **UNİCEF** | United Nations Children's Fund |
| **ÜDM** | Ümumi Daxili Məhsul |

## MÜNDƏRİCAT

**GİRİŞ............................................................................................ 8**

**I FƏSİL. UŞAQ ƏMƏYİNİN FORMALAŞMASININ ÜMUMİ XARAKTERİSTİKASI ............................................................ 11**

1.1. Uşaq əməyi və onun formalaşması ........................................ 11

1.2. Uşaq əməyindən istifadənin əsas şərtləri .................................. 20

**II FƏSİL. UŞAQ ƏMƏYİNDƏN İSTİFADƏNİN SOSİAL-İQTİSADİ TƏSİRLƏRİ.................................................................. 27**

2.1 Uşaq əməyindən istifadənin müasir vəziyyəti və sosial-iqtisadi təhlili............ 27

2.2 Uşaq əməyindən istifadənin azaldılmasına dair dövlət siyasətinin əsas istiqamətləri.................................................................. 38

2.3. Kasıb ölkələrdə əhalinin həyat səviyyəsinin uşaq əməyindən istifadəyə təsirləri...................................................................... 42

**III FƏSİL. AZƏRBAYCANDA UŞAQ ƏMƏYİNDƏN İSTİFADƏ SƏVİYYƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ........................................ 50**

3.1. Azərbaycanda uşaq əməyindən istifadə ilə bağlı mövcud problemlər və onların həlli istiqamətləri............................................................ 50

3.2. Dövlətin bu sahədə həyata keçirdiyi islahatlar və onların təkmilləşdirilməsi . 57

**NƏTİCƏ VƏ TƏKLİFLƏR ................................................. 64**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI.............................. 68**

Cədvəllərin siyahısı ...................................................... 70

Şəkillərin siyahısı ........................................................ 70

Qrafiklərin siyahısı........................................................ 70

# GİRİŞ

**Mövzunun aktuallığı:** 18 yaşına qədər uşaqlar təxminən dünya əhalisinin 1/3 hissəsini təşkil edir. Bir sıra ölkələrdə gənclər və uşaqlar, demək olar ki, aid olduqları ölkələrdəki əhalinin 50 %-ni təşkil edir. Beləliklə, böyük və ya kiçik olmasına baxmayaraq, biznes strukturlarının uşaqlar ilə qarşılıqlı əlaqədə olmağı, onların həyatına dolayı və ya birbaşa yolla təsir göstərməsi qaçınılmaz hal almış olur.

Biznesin uşaqlar üzərindəki təsir dərəcəsi uzun-müddətli və demək olar ki, sarsılmazdır. Uşaqlıq sürətli formada baş verən psixoloji və fiziki inkişaf dövrüdür və həmin dövrdə gənc insanların fiziki, emosional və əqli sağlamlığı müəyyən təsir nəticəsində daimi olaraq pisə və yaxud yaxşıya doğru istiqamətlənə bilər. Uşağın bu inkişafetmə dövrləri ərzində adekvat təmiz su, ərzaq, sevgi və qayğı ilə təmin olunması onun həyatda qalaraq yaşaması, sağlamlığı üçün böyük əhəmiyyət daşıyır.

Sahib olduqları fiziologiyaya görə uşaqlar məruz qaldıqları çirkli maddələrin böyük bir hissəsini mənimsəyirlər və bunun nəticəsində onların immun sistemi zəifləyərək daha da həssaslaşır.

Müəyyən biznes strukturu tərəfindən işə götürülən və yaxud həmin strukturun təsirinə məruz qalmış uşaqlar adətən o qədər də gözə çarpmırlar. Bunun bir nümunəsi olaraq qeyri-qanuni formada təchizat zəncirində işləmiş uşaqları, şirkət müəssisələrində və yaxud onların ətrafında işləyən uşaqları, işəgötürənin ev məişət işçiləri olaraq işlədilən uşaqları, habelə təhlükəsizlik xidmətləri tərəfindən tutulmuş və yaxud saxlanılan uşaqları göstərmək olar.

Uşaq əməyindən istifadənin qarşısını almaq hazırda dünya ölkələrini düşündürən ən başlıca məsələlərdəndir. Uşaqların vaxtından əvvəl fiziki əməyə cəlb edilməsi onların sağlamlığına və gələcək inkişafına böyük zərbə vurur. Onların qeyri-qanuni formalı əməyə cəlb edilməsi isə bu zərəri daha da artırır. Bu problem hazırda bütün dünyada aktual olaraq qalmaqdadır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Uşaq əməyindən istifadənin sosial-iqtisadi aspektlərinin araşdırılması tədqiqatçılar tərəfindən tədqiq edilmiş və edilməkdədir. Mövzu ilə bağlı fikirlərə bir çox alimlərin əsərlərində rast gəlmək mümkündür. Əhmədova G.A, Quliyev N.Z, Məmmədov Ə.M., Mənsimov E.T.,

Səfərli A.S., Bourdillon M.T., Levison D.T., Myers W.S., Calva L.F., Luis F.D., Cigno A.S., Rosati F.C., Lal R.K., Lessler S.D., Neil M.N., Thomas A.E. və başqaları mövzu ilə əlaqədar bir çox kitabların, monoqrafiyaların, məqalələrin və s. nin müəlliflərindəndirlər.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın məqsədini uşaq əməyindən istifadənin sosial-iqtisadi aspektlərinin dünya və Azərbaycan üzrə təhlil etmək təşkil edir.

Məqsədin reallaşdırılması üçün aşağıdakı vəzifələr yerinə yetirilməlidir:

- Uşaq əməyinin mahiyyətinin açıqlanması;
- Uşaq əməyindən istifadənin səbəblərinin araşdırılması;
- Uşaq əməyindən ən çox istifadə edən ölkələr və həmin ölkələrdəki mövcud sosial vəziyyətin təhlil edilməsi;
- Uşaq əməyindən sui-istifadənin artması ilə ölkənin həyata keçirdiyi iqtisadi siyasətin qiymətləndirilmsəi;
- Azərbaycanda uşaq əməyinin mövcudluğu və onun təhlili.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti uşaq əməyindən istifadə, predmeti isə uşaq əməyindən istifadənin sosial-iqtisadi təsirlərinin təhlil edilməsidir.

**Tədqiqat metodları:** Dissertasiya mövzusunda tədqiqat işinin tədqiqi prosesində iqtisadi-statistik təhlil, qruplaşdırma və müqayisə, müşahidə, məntiqi və elmi ümumiləşdirmə, müqayisəli və sistemli təhlil, analiz və s. metodlardan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası:** Tədqiqatın informasiya bazası olaraq mövzu ilə bağlı dərsliklərdən, məqalə və elmi tədqiqat məlumatlarından, internet resurslarından, rəsmi sayt məlumatlarından və s. istifadə olunmuşdur.

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqat mövzusunun mükəmməl şəkildə tədqiq və təhlil edilməsi üçün məlumat bazasının kifayət qədər olmaması məhdudiyyət təşkil edir. Xüsusilə də Azərbaycanda uşaq əməyindən istifadəylə bağlı tədqiqat aparılması üçün kifayət qədər elmi tədqiqat işləri, məqalə məlumatları və s. olmaması məhdudiyyət yaradır.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- Uşaq əməyinin istismarına qarşı inzibati tədbirlər görülməklə yanaşı, bu istiqamətdə maarifləndirmə tədbirlərinə də xüsusi önəm verilməsi;

- Uşaq əməyinin istismarı, onların məcburi əməyə cəlbetmə hallarının qarşısının alınması üçün dövlət dəstəyinin təkmilləşdirilməsi;

- Uşaq əməyinə aid müvafiq beynəlxalq konvensiyalardan, habelə Beynəlxalq Əmək Təşkilatının xüsusi sənədlərindən irəli gələn bir sıra öhdəliklərin yerinə yetirilməsinə əsasən tədbirlərin gücləndirilməsi.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Tədqiqatın başlıca praktiki əhəmiyyəti dissertasiya işində formalaşdırılmış nəticə və təkliflərin uşaq əməyindən istifadənin qarşısnın alınması ilə əlaqədar həyata keçirilən tədbirlərdə istifadə oluna bilməsidir. Aparılmış tədqiqat və əldə olunan nəticələr uşaq əməyi və istismarı ilə əlaqədar gələcəkdə nəzərdə tutulan elmi tədqiqat işləri, qəbul ediləcək rəsmi sənədlər və s. üçün əsas ola bilər.

# I FƏSİL. UŞAQ ƏMƏYİNİN FORMALAŞMASININ ÜMUMİ XARAKTERİSTİKASI

## 1.1. Uşaq əməyi və onun formalaşması

Uşaqlar tərəfindən görülən işlərin hamısı aradan qaldırılması hədəflənən uşaq əməyi kimi təsnif edilməməlidir. Uşaqların və ya yeniyetmələrin sağlamlıqlarına və fərdi inkişaflarına təsir etməyən və ya məktəbdə təhsil almalarına mane olmayan işlərdə iştirakı ümumiyyətlə müsbət hal kimi qəbul olunur. Bura valideynlərinə ev ətrafında kömək etmək, ailə işində kömək etmək və ya məktəb saatları xaricində və məktəb tətilində kömək etmək kimi fəaliyyətlər daxildir. Bu cür fəaliyyətlər:

- uşaqların inkişafına və ailələrinin rifahına töhfə verir;
- onlara bacarıq və təcrübə verir;
- yetkin yaşlarında cəmiyyətin məhsuldar üzvləri olmağa hazırlaşmalarına kömək edir.

"Uşaq əməyi" termini tez-tez uşaqları uşaqlığından, potensiallarından və ləyaqətlərindən məhrum edən və fiziki və zehni inkişafa zərər verən bir iş olaraq təyin olunur. Bu iş (Quliyev N.Z., 2011: s. 7):

- zehni, fiziki, sosial və ya mənəvi cəhətdən təhlükəlidir;
- uşaqlar üçün zərərlidir;
- onların təhsil almasına müdaxilə edir;
- onları məktəbdə iştirak etmək imkanından məhrum edir;
- məktəbdən vaxtından əvvəl çıxmağı məcbur edir;
- onlardan məktəbə davamiyyəti həddindən artıq uzun və ağır işlə birləşdirməyə cəhd etmələrini tələb edir və s.

Uşaq əməyi o deməkdir ki, həmin işi uşaqlar etməməlidir, o işləri görmək uşaqların fizionomiyasına və yaşına uyğun deyil. Həmçinin işləmək üçün uşaqlar hələ kiçikdir. Bu iş onlar üçün çox təhlükəlidir və yaxud bu iş onlara uyğun deyildir.

Lakin, uşaqlar tərəfindən görülən işlər heç də hamısı qadağan edilməməlidir. Əgər hər hansı iş, uşağın sağlamlığına, onun şəxsi inkişafına, təhsilinə mənfi təsir etmirsə, bu iş uşaqda əmək adamlarına və əməyə ehtiram hissi formalaşdırmağa

xidmət göstərirsə, bu müsbət qəbul edilməlidir (Calva L.F., Luis F.D., 2001: p. 12). Uşaq üçün o əmək qadağan olunur ki, o, uşağın yaşına uyğun deyildir. Bəzi hallarda kimlər isə bu əməkdən faydalanmaq üçün istifadə edirlər. "Uşaq əməyi" barədə danışarkən aşağıdakılar nəzərə alınmalıdır:

1. uşağın yaşı;
2. işin növü;
3. işin saatı;
4. iş yeri mütləq nəzərə alınmalıdır.

Uşaq əməyinin müxtəlif formaları mövcuddur. Uşaqlar kənd təsərrüfatı işlərində, inşaatda, ev təsərrüfatında, manufakturada işlədilir, hətta küçələrdə dilənçiliyə belə məcbur edilirlər. Dünyanın bir çox nöqtələrində müharibələr vaxtı azyaşlılar əsir götürülürlər. Bəzən uşaqlar valideynlərinin borcuna görə də zorla işlədilir. Bütün bunlar uşaq əməyinin pis formalarıdır, hansı ki, bunlar zərərlidir, uşaqların mənəvi aləmlərinə zərbə vurur, uşağın hüquqlarını və azadlıqlarını məhdudlaşdırır.

Uşaq əməyindən istifadə iqtisadiyyatın qeyri-rəsmi sektorlarında istifadə edilir. Bəzi işlərdə uşaqlara hətta əmək haqqı da verilmir, sadəcə, yatmaq və yemək üçün işləyirlər. Əgər uşaq xəstə olarsa, onlar işlədiyi zaman əmək haqqları ödənilmir, bundan başqa, işçilər tərəfindən pis davranışa, zorakılığa məruz qalır, müdafiə edilmirlər.

Uşaqların sui-istifadə edildiyi əmək aradan qaldırılmalıdır. Bu sadəcə insan haqqlarına, insanlığa zərbə vurmur, həmçinin dünyadakı gələcək iqtisadi və sosial inkişafı təhlükəyə atır. Rəqabət, iqtisadi məhsuldarlıq, ticarət uşaq əməyindən istifadəyə bəhanə olmamalıdır.

Uşaqları müdafiə etmək üçün qeyri-qənaətbəxş qanunvericilik və siyasi mühafizə və uşaq əməyi barədə ümummilli qanunlar uşaqları qorumaq üçün uğursuz olduğu vaxt davam edir (Çələbiyev N.Z., 2005: s.34).

Uşaqlıq bəşəriyyətin sağlam və təhlükəsiz inkişafı üçün həssas dövrdür. Ona görə ki, uşaqlar hələ böyüyür, onların özlərinə məxsus ehtiyacları və xarakterləri var. Bu müddət ərzində onların idrakları, bədən quruluşu inkişaf edir və bunlar hər

zaman nəzərə alınmalıdır. Acınacaqlı halddır ki, hal-hazırda dünyanın müxtəlif dövlətlərində uşaqlar müxtəlif cür zorakı işlərə məruz olunur, onlar kimyəvi, fiziki, gigiyena, psixoloji və bioloji risklərə məruz qalır. Buna kasıb yaşayış şəraiti, uzun iş saatı da əlavə edilərsə, demək olar ki, zədələnmələr, xəstəliklər, hətta ölüm riskləri ilə qarşılaşırlar.

İşdəki risklər uşaqlara yetkinlərə nisbətən daha çox təsir edə bilir (Əhmədova G.A., 2011: s. 17). Məsələn, fiziki hal, xüsusilə təkrar manevrlərlə birləşdikdə böyüyən sümüklər və oynaqların böyüməsinə maneə yaradar, bel zədəsi və başqa deformasiya və əlilliyə səbəb ola bilər. Uşaqlar işləməkdən, onlar üçün yorucu olan və şiddət və istismara məruz qalmış olduqları ətraf şəraitdən əziyyət çəkə bilər. Əlavə olaraq, uşaq əməyindən istifadəyə onların gələcəyinə ciddi şəkildə mənfi təsiri olur.

Dünyada:

1. 18 yaşına çatmayan 2.2 mlrd. uşaq yaşayır-bu da təqribən dünya üzrə əhalinin 1/3-ni təşkil edir.

2. 10-19 yaş arası yeniyetmələr əhalinin 18 %-ni təmsil edir.

3. 1 mlrd. uşaq yaşamaq, inkişaf etmək üçün vacib olan bir və yaxud daha çox xidmətdən məhrumdur.

4. Dünyada 15 yaşına çatmayan 2 mln. uşaq İİV-lə yaşayır.

5. 215 mln. uşaq, uşaq əməyiylə məşğul olur.

6. 101 mln. uşaq ibtidai məktəbə getmir.

7. 51 mln. uşaq doğum zamanı qeydiyyata salınmır.

Uşaq əməyinin pis formalarına aşağıdakılar daxildir (http://www.childinfo.org/index.html, 2018) :

a) köləliyin bütün formaları və ya köləliyə oxşar təcrübə, məsələn, uşaqların satılması və uşaq alveri, borc və təhkimçilik asılılığı, habelə məcburi və ya icbari əmək, o cümlədən, uşaqlardan silahlı münaqişələrdə istifadə edilməsi üçün onları məcburi və ya icbari surətdə cəlb etmə;

b) fahişəliklə məşğul olmaq, pornoqrafik materialların istehsalı, yaxud pornoqrafik tamaşalar üçün uşaqdan istifadə etmə, onu cəlb etmə və ya təklif etmə;

c) müvafiq beynəlxalq müqavilələrdə müəyyən edildiyi kimi, hüquqa zidd fəaliyyətlə məşğul olmaq üçün, xüsusilə, narkotik maddələrin istehsalı və satışı üçün uşaqdan istifadə etmə, onu cəlb etmə və ya təklif etmə;

d) öz xarakterinə və ya yerinə yetirildiyi şəraitə görə uşaqların sağlamlığına, təhlükəsizliyinə və ya mənəviyyatına ziyan vura biləcək iş (https://ourworldindata.org › child-labor, 2018).

Dünyada və Amerikada son onilliklərdə varlı və kasıb arasındakı artan boşluq milyonlarla gənc uşağı məktəbdən çıxarmağa və işləməyə məcbur etdi. Beynəlxalq Əmək Təşkilatı, 5 yaşdan 17 yaşa qədər olan 215 milyon uşağın hal hazırda qanunsuz, təhlükəli və ya həddən artıq istismar edildiyi şərtlərdə çalışdığını təxmin edir. Yetkinlik yaşına çatmamış uşaqlar, ümumiyyətlə, özləri və ailələri son dərəcə kasıb olduqları üçün bütün dünyada işləyirlər. Çox sayda uşaq kommersiya əkinçiliyi, balıqçılıq, istehsal, mədənçilik və məişət xidmətində çalışır. Bəzi uşaqlar narkotik ticarəti və fahişəlik və ya əsgər kimi xidmət edən digər travmatik fəaliyyətlər kimi qeyri-qanuni fəaliyyətlərdə çalışırlar.

Uşaq əməyi aşağıdakı xüsusiyyətlərdən ən az birini əhatə edir:

- Bir millətin minimum yaş qanunlarını pozur;
- Uşaqların fiziki, zehni və ya emosional rifahlarını təhdid edir;
- Uşaq köləliyi, uşaq alveri, borc əsarət, məcburi əmək və ya qeyri-qanuni fəaliyyətlər kimi dözülməz zorakılığı özündə cəmləşdirir;
- Uşaqların məktəbə getməsinin qarşısını alır;
- Uşaqları əmək standartlarını pozmaq üçün istifadə edir.

Dünyadakı təxminən 215 uşaq işçdən:

- təqribən 114 milyon nəfər (53%) Sakit Okean və Asiyada;
- 14 milyon (7%) Latın Amerikasında yaşayır;
- 65 milyon (30%) Afrika Səhrasında yaşayır.

Azyaşlıların məcburi əməyə cəlb edilməsi dünya ölkələrində rəsmi formada ildə qadağan edilsə də, hələ də problemlə üzləşən çox uşaq var.

Cenevrədə yerləşən Beynəlxalq İş Təşkilatının bu problemlə əlaqədar apardığı araşdırmada bir sıra məqamlar üzə çıxmışdır.

Araşdırma zamanı  işləməyə məcbur olunduqları üçün ruhi və fiziki baxımdan zərər çəkən yaşı 18 yaşdan az olam uşaqların ümumi sayının milyonlarla ölçüldüyü məlum olmuşdur. Bəzən valideynlərinə təsərrüfat işlərində yardım edən və qəzet paylayan uşaqlar bu kateqoriyaya daxil olunmamışdır.

BİT-in təxminlərinə görə, 2018-cı il ərzində dünyada yaşı 5-17 yaş aralığındakı 218 milyon azyaşlı uşaq fiziki əməklə məşğul olmuşdur. Onlardan 153 milyonunun zoraki işlədildiyini deyən BİT bu kateqoriyaya daxil olanların 50 %-nin 12 yaş, həmçinin, ondan aşağı olduğunu açıqlamışdır. Bu isə, həmçinin məktəblilərin təhsildən yayınması anlamına gəlir.

Araşdırmaya görə, ən acınacaqlı durumun Afrikada olduğunu qeyd edə bilərik. BİT burada hər 5  uşaqdan birinin əməyinin istismar edildiyini qeyd edir.

Əgər uşaqlar, xüsusilə də məktəbli uşaqlar kölə halına salınır, dükan, fabrik, şəxsi evlər və fermalarda işləməyə məcbur olunur, hətta heyvanlardan daha ucuz qiymətə alınıb-satılırsa, bu,  insanlıq adına ləkənin olması nlamına gəlir.

1973-cü il əzrində BİT tərəfindən qəbul olunan, işləmək üçün vacib hesab edilən minimum yaş həddini əhatələyən qanun bir sıra ölkələr tərəfindən qəbul olunmamışdır.

1999-cu il ərzində BİT uşaq əməyinin mənfi tərəflərinə toxunan başqa müqavilə hazırlamışdır. Bu müqaviləni 181 dövlətin imzalamışdır və nəticə uğurlu alınmışdır.

2018-ci ildə əvvəlki illərlə müqayisə edildikdə işləyən uşaqların ümumi  sayı təxminən, 134 milyon azalsa da, BİT problemin aradan götürülməsi üçün qadağaların kifayət etməyəcəyi planlaşdırır (https://www.worldvision.org › child-labor-facts, 2019).

Beynəlxalq Əmək Təşkilatı 2002-ci ildən 12 İyun gününü- Ümumdünya Uşaq Əməyindən istifadəyə Qarşı Mübarizə Günü kimi elan edib. Məqsəd uşaq əməyindən istifadə hallarının aradan qaldırılmasına bəşəriyyətin diqqətinin artırılması və bu istiqamətdə hökumət və ictimai təşkilatların birlikdə səylərinin gücləndirilməsidir.

Uşaq əməyindən bütün dünyada istifadə olunur. Azərbaycanda bu hallar bir çox sahədə özünü göstərir. 5 ilə 14 yaş arasındakı yetkinlik yaşına çatmayanların mərkəzi bazarlarda və küçə ticarətində istifadəsi artmaqdadır.

Əmək Məcəlləsinin tələblərinə uyğun olaraq, bir vətəndaş onunla işəgötürən arasında əmək müqaviləsi bağlandığı təqdirdə işləyə bilər: 15-18 yaş arası uşaqların işi üçün valideynlərin razılığını almaq lazımdır. Valideynlərin razılığı açıq şəkildə tələb olunur. Müqavilə bağlandıqda bu, müqavilədə qeyd edilir.

Azərbaycan Respublikasının qanunvericiliyi uşaq əməyinin istifadəsini açıq şəkildə qadağan edir. Bu, beynəlxalq standartlarda da öz əksini tapmışdır. Uşaq Hüquqları Bəyannaməsi və Avropa İnsan Hüquqları Məhkəməsinin Konvensiyasında məcburi uşaq əməyinin istifadəsini qadağan edən maddə mövcuddur. Dövlətlərin uşaq əməyindən istifadə ilə bağlı bu faktlara göz yummamasını təmin etmək üçün kifayət qədər həll yolu var. Uşaq əməyindən istifadə barədə danışa bilmərik.

Uşaq əməyi ilə bağlı Azərbaycan qanunvericiliyi aşağıdakı kimi tənzimlənir:

“İnzibati Xətalar Məcəlləsinin 192.1-ci maddəsində fiziki şəxslərin 3000 manatdan 5000 manata, hüquqi şəxslərin isə 20000 manatdan 25000 manata qədər cərimə edilməsi nəzərdə tutulur. Bu çox miqdarda olarsa, cinayət məsuliyyəti var. Cinayət Məcəlləsinin 162-1 maddəsinə görə bu, 3 ildən 7 ilə qədər cəzalandırılır. Bundan əlavə, 10 min manata qədər cərimə var.

İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 4 (2) maddəsi də məcburi əməyi qadağan edir. Bildirilir ki, heç kim məcburi əməyə məruz qala bilməz.

30 sentyabr 1993-cü ildə Azərbaycan Respublikası uşaqların yaşaması və qorunması üçün inkişafın qurulması haqqında Ümumdünya Bəyannaməsinə qoşuldu. Əmək Təşkilatının minimum yaş həddi haqqında 138 saylı Konvensiyanı, 146 saylı Tövsiyə və Uşaq Əməyinin ən pis formaları haqqında 182 saylı Konvensiyanı və 190 saylı Tövsiyəni təsdiqlədi. Bu sənədlərin hamısını ratifikasiya etdik. Hansı ki, burada uşaq əməyindən istifadəyə uyğun minimum yaş on beşdir. 15 yaşınadək uşaqların işi ümumiyyətlə qadağandır.

Bunu edənlər məcburi əməyin istifadəsinə və cinayət məcəlləsinin tələblərinə görə məsuliyyətə cəlb edilə bilərlər. Uşaq və əmək hüquqları ilə bağlı faktlar müvafiq dövlət orqanları tərəfindən araşdırılmalı və açıqlanmalıdır. Əvvəla, bu hallara Ailə, Uşaq və Qadın Dövlət Komitəsi tərəfindən baxılmalıdır. Təəssüf ki, Uşaq Hüquqları üzrə Ombudsman yoxdur. Ən əsası, yerlərdə bir sıra reydlər keçirən müfəttişlər olmalıdır. Bu müfəttişlər belə halları aşkar edirsə, müvafiq sahibkarlara uyğun protokollar tərtib etməlidirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu siyasətinin prioritetlərindən biri olaraq, ölkəmizdə uşaqların müdafiəsi, firavan və sağlam böyüyərək layiqli vətəndaş olaraq yetişmələri üçün kompleks tədbirlər yerinə yetirilir. Bu tədbirlərin bir istiqaməti uşaq əməyindən istifadəyə qarşı mübarizəyə yönəlib. Ötən dövr ərzində Azərbaycan BMT-nin "Uşaq Hüquqları haqqında" adlı Konvensiyasına, "Uşaqların müdafiəsi, yaşaması və inkişafının təmin olunması haqqında" Ümumdünya Bəyannaməsinə və b. sənədlərə qoşulmuşdur. Milli qanunvericilik bu sənədlərdən irəli gələn mütərəqqi beynəlxalq normalar, həmçinin BƏT-in "İşə qəbul üçün minimum yaş həddi barədə", "Uşaq əməyinin pis formalarının qadağan olunmasına və onların aradan qaldırılması məqsədilə təcili tədbirlərə aid" Konvensiyaları əsasında təkmilləşdirilmişdir.

Azərbaycan qanunvericiliyi uşaqların sağlamlığına, mənəviyyatına təhlükə törədə biləcək işlərə cəlb olunmasını qadağan edir. Ölkəmizin Əmək Məcəlləsinə əsasən, uşaqların əsasən işə qəbul olunması üçün ən az yaş həddi on beş yaş müəyyən edilib. Bu yaşa çatmamış uşaqlarla bağlanılmış əmək müqaviləsi etibarsız sayılmaqla, belə müqaviləni bağlamış işəgötürən inzibati məsuliyyətə cəlb olunur. 15 yaşdan 18 yaşa kimi işçilərin əməyindən istifadəylə bağlı onlar üçün əmək şəraiti, əmək və iş məzuniyyəti vaxtı, müddəti və b. bu kimi baxımlardan əlavə təminatlar, güzəştlər müəyyən olunub.

Dövlət Əmək Müfəttişliyi Xidməti uşaqların əməyinin istismarına qarşı inzibati tədbirlər görməklə yanaşı, uşaq əməyindən istifadənin qarşısının alınmasına aid ardıcıl təbliğat-maarifləndirmə işi də aparır. Müvafiq Tədbirlərə əsasən, 2019-cu ilin ötən dövrü ərzində də respublikamızın müxtəlif ərazilərində işgötürənlərin, habelə

orta məktəblərin şagird və müəllim heyətlərinin iştirakıyla ilə “Uşaq əməyindən istifadə hallarının qarşısının alınması” mövzusunda tədbirlər həyata keçirilmişdir. Görülən tədbirlər nəticəsində Azərbaycanda uşaq əməyindən qeyri-qanuni formada istifadə edilmə hallarının sayı minimuma endirilmişdir.

Uşaqları istismar etmək uşaqların bir çox hüquqlarını ciddi ormada pozmaq, onların sosial-əqli, psixoloji, ruhi və fiziki inkişafına zərər vurmaqdır.

**Şəkil 1: BƏT statistikasına əsasən qonuşu ölkələrdə uşaq əməyindən istifadə, 2018 (%-lə)**




**Mənbə:** https://www.bbc.com/azeri/international-44300749, 2018

“Save the Children” adlı uşaqların hüquqlarını müdafiə edən bir beynəlxalq təşkilatın hesabatında qeyd edildiyi kimi, dünyada 1,2 mlrd. nəfər uşaq yoxsulluq, diskriminasiya təhlükələri və münaqişələr ilə üz-üzə qalmışlar.

Təşkilatın hesabatı Beynəlxalq Uşaqlar Günü münasibətilə 1 iyunda dərc edilib.

Hesabatda qeyd olunub ki, təxminən 1 milyarda qədər uşaq yoxsul ölkələrdə yaşamaqdadırlar, 240 milyona qədər uşaq isə münaqişələr yaşanan ölkələrdə yaşayırlar.

Eləcə də qeyd edilib ki, 575 milyona qədər qız uşağı qadınların diskriminasiyaya məruz qalmış olduğu dövlətlərin payına düşür.

Azərbaycan Respublikası uşaqların vəziyyətinə aid ölkələr üzrə “Save the Children” adlı təşkilatın 2018-ci il reytinqində 175 dövlət arasında 841 xal ilə 89-cu yerdə qərarlaşmışdır.

Azərbaycanın qonşu dövlətlərinin tutduqları yerlər isə belədir:

1. Ermənistan-57-ci yer;
2. Gürcüstan - 72-ci yer;
3. Rusiya - 37-ci yer;
4. Türkiyə - 64-cü yer;
5. İran - 86-cü yer.

5 yaşına qədər uşaqlar arasındakı ölüm hallarının statistikası bölümündə qeyd olunduğu kimi Azərbaycanda 1000 uşağa düşən ölüm hallının göstəricisi 30 təşkil edir. Ermənistanda həmin göstərici 13, Gürcüstanda isə 10 təşkil etmişdir.

2012-2017 illər ərzində 5 yaşına qədər uşaqlarda böyümənin ləngiməsi Azərbaycanda - 18 %, Ermənistanda - 9,5 %, Gürcüstanda isə 11,4 % olmuşdur.

Eyni dövrdə məktəb yaşında olan uşaqlar arasında məktəbə getməyənlər uşaqlar Azərbaycanda - 4,7 % , Ermənistanda - 5,8 % , Gürcüstanda isə 2,5 % olmuşdur.

Uşaq əməyindən istifadə göstəricisi 2012-2017 illər ərzində Azərbaycanda-6,6 %, Ermənistanda-8,8 %, Gürcüstanda isə-4,2 % olmuşdur.

15-19 yaşında evləndirilmiş qızların faizi:

1. Azərbaycanda-8,9 %;
2. Ermənistanda - 4,6 % ;
3. Gürcüstanda - 10,6 % olmuşdur.

Münaqişələr səbəbindən yaşayış yerini tərk etməyə məcbur qalmış uşaqlara id bölümdə Azərbaycanın faiz göstəricisi 6,4 %, Ermənistanda-0,8 %, Gürcüstanda isə 7,6 %-dir.

Uşaqların vəziyyətilə əlaqədar hər bir ölkənin reytinqi aclıq təhlükəsi, ölüm, təhsil almağın çətinliyi, ana olmaq, erkən nikah, işləməyə məcbur olunmaq və bu kimi başqa çətinliklərlə uşaqların qarşılaşması ehtimalı əsasında formalaşmışdır.

Ölkələr üzrə uşaqların durumuna dair reytinqdə Sloveniya və Sinqapur sıralamanın birinci 2 yerini paylaşırlar, onların ardınca isə Norveç, İsveç, Finlandiya gəlir.

Bu siyahının aşağısında Niger, Mali, Mərkəzi Afrika Respublikası qərarlaşmışdır. Ümumiyyətlə siyahının axırındakı 10 ölkədən 8-i Mərkəzi və Qərbi Afrikanı təmsil edir (https://www.bbc.com/azeri/international-44300749, 2018).

"Save the Children" adlı hesabatda qeyd olunmuşdur ki, siyahıda hərbi və iqtisadi qüdrətlərinə baxmayaraq Amerika (36-cı yer), Çin (40-cı yer), Rusiya (37-ci yer), Qərbi Avropa ölkələrindən əvvəldə yer tutmuşdur.

Təşkilat xüsusi narahatlıq yaradan on trendi də qeyd etmişdir. Bu səpkidə yeniyetmə yaşlarında olarkən nikahbağlama və hamiləlik hallarının çoxalması, yoxsul və zəngin dövlətlər arasında artan uçurum, Afrikanın cənubunda və mərkəzində yerləşən dövlətlərdə uşaq ölümünün statistikasının pisləşməsi, uşaq əməyindən istifadə və dünyada uşaqların təhsil almasına mane olan əngəllər ən narahatedici problemlər olaraq qeyd edilib.

## 1.2. Uşaq əməyindən istifadənin əsas şərtləri

Uşaq Hüquqları Konvensiyasına görə, uşaq əməyinin istismarı qadağan olunub.

Buna baxmayaraq, dünyada elə dövlətlər var ki, orada zavodlarda, fabriklərdə və fermer təsərrüfatlarında uşaq əməyindən istifadə edilir. Bu gün iqtisadiyyatı zəif olan ölkələrdə 250 milyondan çox azyaşlı uşaq işləyir.

Beynəlxalq təşkilatların məlumatlarına görə, dünyada uşaq əməyinin istismarına Asiya ölkələrində 153 milyon, Afrikada 80 milyon, Cənubi Amerika ölkələrində isə 17 milyona qədər azyaşlı uşaq məruz qalır.

Həmin uşaqlar dözülməz şəraitdə işlədilir və bir çox hallarda onlar öz sağlamlıqlarını itirirlər. Əksər hallarda azyaşlılar fahişəliyə və hərbi konfliktlərə cəlb edilirlər.

Uşaq əməyindən istifadə hallarının 69 faizi kənd təsərrüfatı sahəsinin payına düşür. Uşaqlar bu sahədə əsasən tütün, pambıq, düyü və kakao yığımında istifadə olunurlar. Myanma uşaq əməyinin istismarına görə ilk yeri tutur.

Bundan başqa Hindistan, Braziliya, Banqladeş, Çin, Filippin, Nepal, Somali, Şimali Koreya, Şri-Lanka, Əfqanıstan və Pakistan da bu siyahıya daxildir.

Myanmada 7 yaşına çatmış hər üç uşaqdan biri işləyir.

Bu uşaqlar çox ağır işlərdə çalışırlar. Yaxın günlərə qədər uşaq əməyi hərbi sahədə də istifadə edilirdi. Uşaqlar orduda təmizlik işləri və yük daşımaqla məşğul olurdular.

Bundan başqa, uşaqlardan canlı sipər kimi də istifadə olunur. Beynəlxalq təşkilatların təzyiqindən sonra Myanma uşaq əməyini yüngülləşdirməyə məcbur edilib.

İndi bu ölkədə uşaqlar yalnız tikinti sahəsində çalışırlar.

Tikinti sahəsində 8 yaşlı qız uşaqları 20 kiloqramlıq sementlə dolu qabları daşımağa məcbur edilirlər. Bu sahədə əsasən ailəvi çalışırlar və əmək haqları da valideynlərə verilir.

İşləmək məcburiyyəti bu ölkədə azyaşlı uşaqların 40 faizini təhsil almaq imkanından məhrum edib.

Əgər azyaşlı uşaqlar valideynləri tərəfindən başqa ölkəyə satılırsa, belə uşaqlar şanslı uşaqlar sayılırlar.

Çay plantasiyalarında çalışmaq uşaqlar üçün təhlükəsiz və prespektivli iş sayılır.

Hindistanda uşaq əməyindən qızıl mədənlərində, kakao yığımında və paltarların tikilməsində istifadə edilir. Bu ölkədə kasıb ailələr öz uşaqlarını 5 yaşından qul kimi satırlar.

Banqladeşdə 18 yaşına qədər insanların 18 faizi günü 1 dollara yaşamağa məcburdur. Bu ölkədə 12 saat uşaq əməyinə görə 1.7 dollar pul verilir.

Dünyanın lider istehsalçıları da uşaq əməyindən istifadə edirlər. Hindistanın "Monsanta" korparasiyasını və Çinin "Peqatron Group" kompaniyasını buna misal göstərmək olar.

Yeyinti sənayesinin liderlərindən olan “Nestle” də uşaq əməyinin istismarında günahlandırılır. Azyaşlıların əməyi şokolad hazırlanmasında istifadə edilən kakao plantasiyalarında da istifadə edilir.

Milyonlarla uşaq dünyanın bir çox ölkəsində xoşbəxt uşaqlığın nə olduğunu bilmir. Onlar ölkələrinin iqtisadiyyatı zəif olduğu üçün işləməyə məcburdurlar (Səfərli A.S., 2016: s.5) .

Uşaq işçiləri yeraltı mədənlərdə, açıq mədənlərdə və karxanalarda son dərəcə yüksək xəstəliklər və yaralanmalara məruz qalırlar. 6 və ya 7 yaşındakı uşaqlar qayalıqları parçalayır, filizləri yuyur, ələyir və daşıyırlar. Doqquz yaşlı uşaqlar yeraltı partlayıcı maddələr və yük daşıyanlar işləyirlər. Uşaqlar bir sıra mədən əməliyyatlarında çalışırlar.

Uşaq əməyi ümumi problemdir və ona çoxsaylı faktorlar təsir edir. Kasıblıq azyaşlı uşaqları işləməyə məcbur edən başlıca səbəbdir. Kasıb ailələr ümumi gəlirlərinin böyük bir hissəsini yeməyə sərf edirlər, bu səbəbdən də uşaqların işləməsi ailələr üçün çıxış yoludur. Kasıbçılıq uşaq əməyinin tək səbəbi deyil, bir sıra ölkələrdə başqa mənfi təzahürlər də azyaşlı uşaqların əməyinin istimarına yol açır.

Başqa faktorlar aşaöıdakılardır:

Təhsil baryeri-Bütün ölkələrdəilk təhsil pulsuz deyil, bununla bərabər, bütün uşaqlar, əsasən ucqar rayonlardakı uşaqlar üçün əlçatan deyildir. Məktəbin olduğu yerlərdə bəzən təhsilin səviyyəsi aşağı olur, yaxud münasib olmur. Təhsilin aşağı səviyyədə olduğu və yaxud təhsilin olmadığı yerlərdə valideynlər övladlarını məktəbə göndərmək əvəzinə işləməyə göndərirlər (Lal R.K., 2009: p. 10).

Mədəniyyət və ənənə-təhsil fürsəti az olan məkanlarda valideynlər mədəni normativi yüksək tuturlar, çünki bu uşağın zamanını sərf etdiyi çox məhsuldar əmək hesab edilir. Uşaqlar bir çox hallarda vaideynlərinin yolunu davam etdirməyə, ya da, kiçik yaşlarda ailə fərdlərinə “köməyə” çağırılır.

Mağazada tələbat-uşaq əməyi təsadüfi hal deyil. İş sahibləri işlərində uşaqları üstün tutur, çünki uşaqların əməyi böyüklərinkindən çox “ucuz”dur, əgər işdə

intizamsızlıq olarsa, itaət etməzsə, uşağı işdən çıxarmaq daha asandır. Həmin halda uşaq özünü qoruya bilmir və dəstək görə bilmir.

Ev təsərrüfatında gəlirə müdaxilə etmək-ev təsərrüfatı gəlir vergisi ilə uyğunlaşmaya bilər. Təbii fəlakət, kənd təsərrüfatındakı və iqtisadi böhran və bir neçə xəstəliklərin nəticəsində uşaqlar ailə üzvlərinə kömək etməyə görə təhsildən imtina edib, işə cəlb edilirlər. Bir çox azyaşlı HİV xəstəliyinə məruz qalıb. Çox azyaşlı HİV-lə yaşamaqdadır, hətta bir çox hissəsi yetim qalmışdır (Lessler S.D., 2010: p.34).

Uşaq əməyiylə bağlı BMT-nin 2018-ci il hesabatında bildirilir ki, əhalisi aşağı gəlirləri olan ölkələrdə 15 yaşına qədər uşaqların 20-30 faizi təhsilini yarımçıq qoyaraq işləməyə başlayırlar və onların böyük bir hissəsi istismara məruz qalır. Beynəlxalq Əmək Təşkilatının yeni hesabatında qeyd olunur ki, hazırda dünyada 168 milyon uşaq açından ölməmək üçün işləməyə məcbur qalıb. Onlardan 120 milyonu 5-14 yaşındadır. 5 milyona yaxın uşaq isə qul əməyinə bərabər şərtlərdə çalışır. 15-17 yaşlarında 47,5 milyon uşaq isə şaxtalarda, sahələrdə həyat üçün təhlükəli olan şəraitdə yaşayır. Uşaqların çox hissəsi ferma və plantasiayalarda istismar olunur (http://strateq.az/%C6%8Fsas/6171/usaq-%C9%99m%C9%99yi-il%C9%99-bagli-color-red-bmt-d%C9%99n-d%C9%99hs%C9%99tli statistika.html, 2018).

**Şəkil 2: Uşaq əməyindən istifadə, 2018**




**Mənbə:** https://ourworldindata.org › child-labor, 2018

UNİCEF küçədə işləyən uşaqları ailələriylə münasibət dərəcəsinə əsasən bir ıra qrupa ayırır (Gartner T.A., Manfred M.F., 2011: p. 34):

I qrup: ailələriylə daim münasibətləri olan azyaşlı uşaqlar günlərini küçədə işləməklə keçirsələr də, ailələrinin nəzarəti və qoruması altındadırlar.

II qrup: ailələriylə müəyyən hallarda münasibət quran "küçə uşaqları". Həmin uşaqların ailə bağları çox zəifləsə də, tamamilə qopmamışdır. Özlərini hələ də analı-atalı, bacı-qardaşlı hesab edirlər. Gün ərzində onlar günlərini küçədə müəyyən şeylər atmaqla keçirsələr də, gecələr öz evlərində olurlar.

III qrup: ailələriylə heç münasibəti olmayan və işləyən uşaqlar. Bu uşaqlar əsasən cəmiyyətin yoxsul təbəqəsinin, dağılmış ailələrin uşaqlarıdır. Ailələrindən zorla, yaxud öz istəkləriylə ayrılan uşaqlar günün bütöv hissəsini küçədə keçirirlər. Evindən qaçan, qovulan, ailəsi olmayan və yaxud ailəsi tərəfindən ümumiyyətlə nəzarət olunmayan uşaqlar üçün küçələr ikinci ev hesab edilir.

UNİCEF-in araşdırmalarında qeyd olunub ki, küçələrdə yaşayan və işləyən uşaqları gözləyən risklər aşağıdakı kimidir (Bourdillon M.T., Levison D.T., Myers W.S., 2010: p.55):

1) istismara məruz qalmaq;

2) siqaret, müxtəlif növ narkotik maddələr, içkidən asılılıq ehtimalı;

3) fiziki və zehni inkişafdakı geriləmə;

4) yaralanma, ölümlə nəticələnən fiziki təzyiqlər, döyülmə;

5) qəsbkarlıq, oğurluq kimi cinayətlərə meyllilik;

6) psixoloji problemlər;

7) fiziki qəzalara uğramaq ehtimalı.

Küçədə işləyən uşaqlar əsasən ailələrin yanında qalır, gündüz küçələrdə işləsələr də, axşam evlərinə qayıdırlar. Amma küçədə işləmə şərtləri onların psixi-sosial inkişaf və təhsil durumlarına mənfi təsir edir. Uşaqlar küçədə yaşamağa təhrik edilməsə, məktəbi atan və küçədə işləyən uşaqların da sayı azalacaq, onların cinsi istismara uğrama riski aşağı düşəcək, yüksək risk altındakı, aşağı gəlirli ailələrin ailədaxili münasibətlərində ümumi bir yaxşılaşma və yeniyetmələr üçün daha yaxşı, sosial inkişaf təmin ediləcək (Cigno A.S., Rosati F.C., 2005: p. 56). 2016-cı ilin

göstəricilərinə görə, dünyada uşaq işçilərin sayı 168 milyondur. Onların 85 milyonu təhlükəli iş sahələrində çalışır. Sonuncular arasında ən yaxşı iş şərtləri valideynlərinə aid iş sahələrində çalışanlardır. Amma atasının tarlasında, mağazasında işləyən uşaqların heç biri maddi gəlir əldə etmir. Bu isə uşaq əməyinin istismarı sayılır. Təhlükəsizliyi risk altında olan 85 milyon uşağın yaşı 5-17 arasında dəyişir. Mədənlərdə, fabriklərdə və ya küçələrdə işləyən bu uşaqlar eyni zamanda cinsi, eləcə də fiziki istismarın qurbanı sayılır. Müasir sosiologiyada bu uşaqlara "müasir kölələr" deyilir (https://www.ilo.org ' child-labour ' lang-en, 2017).

**Şəkil 3: Regionlar üzrə uşaq əməyinin yayılması, 2016**




**Mənbə:** https://www.ilo.org › child-labour › lang-en, 2017

Amma bu da bir faktdır ki, 2013-ci illə müqayisə edildikdə işləyən uşaqların ümumi sayı 1/3 qədər azalmışdır. Xüsusən, qız uşaqları arasında işləyən uşaqların ümumi sayı azalmışdır. 2000-ci ildən etibarən işləyən qız uşaqlarının ümumi sayı 40 faiz azdır. Uşaq işçilər daha çox Asiya ölkələrindədir. Faiz ilə hesabladıqda isə Afrikada, əsasən ölkənin cənubunda işləməyə məcbur olunan uşaq sayı rekord səviyyəyə çatmışdır. Buralarda hər 5 uşaqdan 1-i işləməyə məcbur edilir.

Ümumdünya Uşaq Əməyindən istifadəyə Qarşı Mübarizə Günü BƏT tərəfindən təsis edilib və iyunun 12-də hər il qeyd edilir. Bu gününü təqvimə daxil edilməsi təşəbbüsü 1997-ci ildə Osloda və Amsterdamda keçirilən “Uşaq əməyindən

istifadənin ən pis formalarıyla mübarizə” və “Uşaq əməyiylə mübarizəyə dair” mövzular üzrə keçirilmiş beynəlxalq konfranslarda irəli sürülmüşdür.

Beynəlxalq Əmək Təşkilatı ilk dəfə Ümumdünya Uşaq Əməyindən istifadəyə Qarşı Mübarizə Gününü 2002-ci ildə qeyd etmişdir. Təşkilatın hədəfi-diqqətin bu problemə yönəldilməsi və onun ləğv edilməsinə nail olmaqdır. İyunun 12-də bütün dünyadan olan qeyri hökumət və hökumət təşkilatlarının nümayəndələri, işəgötürənlər, əmək müəssisələri, həmçinin bütün dünyadan olan milyonlarla insan uşaq əməyindən istifadə ilə mübarizə istiqamətində öz səylərini birləşdirir (Neil M.N., 2004: p. 29). Son məlumatlara görə, dünyada yaşı 5-17 yaş arası olan işləyən uşaqların ümumi sayı 218 mln. nəfər təşkil etmişdir. Onların 73 milyonu təhlükəli şəraitdə çalışır. Uşaqlardan çoxu məktəbə getməkdən, qidalanmadan məhrumdur. Uşaq əməyindən istifadəyə qarşı mübarizə problemləriylə bağlı məlumatlılığın çoxaldılması, ictimaiyyətin səfərbərliyi məqsədilə iyunun 12-də hökumət, ictimai təşkilatlar tərəfindən müxtəlif kütləvi tədbirlər keçirilir, rəsm sərgiləri, uşaq bayramları, tamaşalar, idman yarışları, informasiya kompaniyaları təşkil olunur

# II FƏSİL. UŞAQ ƏMƏYİNDƏN İSTİFADƏNİN SOSİAL-İQTİSADİ TƏSİRLƏRİ

## 2.1. Uşaq əməyindən istifadənin müasir vəziyyəti və sosial-iqtisadi təhlili

Müasir dünyada aktual problemlərdən biri də uşaq əməyindən istifadədir. Dünyada yaşı 5-17 yaş arası olan 218 019 milyon uşaq məşğulluğu vardır. Bunlardan 123 190 milyonunu oğlanlar, 94 829 milyonunu qızlar təşkil edir. Uşaq məşğulluğunun dünya üzrə regional bölgüsünə əsaəsn Afrika 1-ci yeri, Sakit Okean və Asiya ölkələri 2-ci yeri, Amerika 3-cü yeri, Orta Asiya və Avropa ölkələri 4-cü yeri, Ərəb ölkələri isə 5-ci yeri tutur.

**Cədvəl 1: Uşaq məşğulluğu, 2019**

| Uşaq məşğulluğu | Say (milyon) | Faiz (%) |
|---|---|---|
| Afrika | 99 417 | 27.1 |
| Asiya və Sakit Okean | 90 236 | 10.7 |
| Amerika | 10 725 | 8.8 |
| Avropa və Orta Asiya | 8 773 | 6.5 |
| Ərəb ölkələri | 1 868 | 4.6 |

**Mənbə:** https://www.unicef.org/csr/css/CRBP_in_Azerbaijani_low_res.pdf - 2019

Cədvəldən də göründüyü kimi, dünya üzrə uşaq əməyindən istifadə hallarının demək olar ki, yarısı Afrikanın payına düşmüşdür. Afrikanın bir çox regionunda məcburi uşaq əməyindən istifaə geniş yayılmışdır və bu hal, uşaqların kənar şəhərlərdə yaşayan qohumlara qəyyumluğa verilməsi kimi ənənəvi praktikaya əsaslanır.

Bir çox valideynlərə uşaqlarının təhsil almaqlarına dair vədlərin verilməsinə baxmayaraq, bir çox hallarda qızlar və oğlanlar ev qulluqçuları kimi balıqçılıq və kənd təsərüffatında və ya digər sahələrdə qəddarcasına istismar edilirlər.

Ancaq məcburi uşaq əməyindən istifadə adəcə Afrika üçün xarakterik deyilir. Sakit Okean və Asiya ölkələrində isə hər on uşaqdan doqquzunun əməyi istismar edilir. 2017-ci ildən bu vaxta qədər dünyada uşaq əməyindən istifadə hallarının sayı

67 faiz azalsa belə, 201 milyon uşaq hələ də məcburi əməyin qurbanlarıdır. Bunun 82 milyona qədəri təhlükəli işlərdə işləyirlər (https://www.stat.gov.az/, 2019).

**Cədvəl 2: İşləyən uşaq sayı, 2019**

| Regionlar | İşləyən uşaqların sayı | Təhlükəli işlərdə işləyən uşaqların say |
|---|---|---|
| **Afrika** | 73 milyon (19.6%) | 32 milyon (8.6%) |
| **Asiya və Sakit Okean** | 62 milyon (7.4%) | 28 469 milyon (3.4%) |
| **Amerika** | 11 milyon (5.3%) | 7 milyon (3.2%) |
| **Avropa və Orta Asiya** | 6 milyon (4.1%) | 5 349 milyon (4%) |
| **Ərəb ölkələri** | 1 162 milyon(2.9%) | 616 min (1.5%) |

**Mənbə:** https://www.unicef.org/csr/css/CRBP_in_Azerbaijani_low_res.pdf - 2019

Afrikada hər 5 uşaqdan biri uşaq əməyinin qurbanı hesab edilir, başqa regionlarda isə həmin göstərici 3-7 faiz aralığında dəyişir. Bu göstərici Ərəb ölkələrində hər 35, Mərkəzi Asiya və Avropada hər 25, Amerikada hər 19, Sakit Okean və Asiyada isə hər 14 uşaqdan birinin əməyi istismar edilir. Aparılan araşdırmalara görə, dünyada işləyən ümumi uşaqların 48 faizi 5-11 yaş, 28 faizi 12-14yaş, 24 faizi 15-17 yaş arasındadırlar. İşləyən uşaqların 88 milyonunu oğlan, 64 milyonunu qızlar təşkil edir. Uşaqların 80 faiz kənd təsərrüfatında, 20 faizi sənayedə çalışırlar.

**Cədvəl 3: Dünyada işləyən uşaq hesabı, 2019**

| | | | |
|---|---|---|---|
| **Afrikada** | kənd təsərrüfatı 85,1% | sənaye 3.7% | xidmət 11.2% |
| **Asiya və Sakit Okean** | kənd təsərrüfatı 57.5% | sənaye 21.4% | xidmət 21.1 % |
| **Avropa və Orta Asiya** | kənd təsərrüfatı 76,7% | sənaye 9.7% | xidmət 13, 6% |
| **Ərəb ölkələri** | kənd təsərrüfatı 60.3% | sənaye 12.4% | xidmət 27.4% |
| **Amerika** | kənd təsərrüfatı 51.5% | sənaye 13.2%, | xidmət 35,3% |

**Mənbə:** https://www.unicef.org/csr/css/CRBP_in_Azerbaijani_low_res.pdf - 2019

Tədqiqatlar göstərir ki, dünyanın ən kasıb ölkələrində hər dörd uşaqdan biri məcburi əməyin qurbanıdır. Qeyd etmək lazımdır ki, bu ölkələrdə yoxsul uşaqlar

Dünya ölkələri ilə müqayisədə, Azərbaycanda uşaq əməyindən istifadə demək olar ki, hiss olunmayacaq dərəcədədir. Əvvəllər, birbaşa əhali buna reaksiya vermirdi. Amma indi əksinə, belə hallarla rastlaşdıqda insanlar narazılığını bildirir, diqqət yetirir.

Əvvəllər maşın pəncərəsi silən uşaqların, avtobuslarda pul yığanların sayı-hesabı yox idi. Bunların sayı yavaş-yavaş azalır. Bu da bir daha göstərir ki, respublikamızda bunun üçün artıq mühit yoxdur.

Dolanışıq üçün şərait yarananda uşaq əməyindən istifadə də getdikcə azalır. Bununla yanaşı, bəzən belə faktlar qeydə alınır, araşdıranda məlum olur ki, məsələ başqa cürdür. Məsələn, dilənçiliyi araşdırsaq, nəticə etibarilə bunun bir biznes olduğunu görərik. bu problemə qarşı hərtərəfli mübarizə aparılmalıdır. İstismarın daha çox fiziki təsir etmə forması var. Amma bizdə demək olar az rast gəlinən formadır. Bu problemi həll etmək üçün ailələrlə işləmək lazımdır. Cəmiyyət ailə ilə qarşılıqlı səy göstərməlidir ki, uşaqlara qarşı zorakılıq halları aradan qaldırılsın. Bəzən valideyn özü pis yolda olur, övladını da bura cəlb edir. Bunların hamısı vacib şərtlərdir. Buna görə də əvvəl ailə, sonra daha çox cəmiyyətlə işlər aparılmalıdır.

Ölkəmizdə 1998-ci ildə qəbul olunmuş "Uşaq Hüquqları barədə" qanuna əsasən, 18 yaşa qədər olan hər bir kəs uşaq hesab edilir. Ölkənin qanunları- Əmək Məcəlləsi, Azərbaycan Respublikası Konstitusiyası, Nikah və Ailə Məcəlləsi, "Uşaq hüquqları barədə" qanun Azərbaycanda uşaq hüquqlarını, onların əmək fəaliyyətini tənzimləyir. Bu Qanunların azyaşlı uşaqların əmək fəaliyyəti üçün müəyyən məhdudiyyətlər və qadağalar qoymasına baxmayaraq, ölkəmizdə uşaqlar hələ də geniş formada istismar edilir.

Milli əmək qanunvericiliyi Azərbaycanda yaşı 15-dən az şəxslərin işə qəbul olunmasına yol vermir. Qanunvericilik respublikada 16-18 yaşarası qrupuna daxil

olan uşaqların əmək şəraiti ağır, zərərli iş yerlərində, yeraltı işlərdə, uşaqların əxlaqına mənfi təsir edən gecə klublarında, barlarda, kazinolarda, tütün məmulatlarının narkotik vasitələrin, spirtli içkilərin və toksik maddələrin daşınması, satışı, istehsalı yerlərində işləməsinə qadağalar qoyur.

Dövlət Əmək Müfəttişliyinin aparmış olduğu araşdırmalar zamanı məlum olmuşdur ki, bir çox ailələrinin maddi imkanları az olan uşaqlar az yaşlarından onlar üçün qadağan olunan yerlərdə əmək fəaliyyətiylə məşğul olur. İşəgötürənləri uşaq əməyindən istifadə etməyə müxtəlif cür səbəblər cəlb edir. Əl əməyindən istifadə edilmə uşaqların əməyinin ucuz dəyərləndirilməsi və onların daha da asan idarə dilməsi işəgötürənləri uşaq əməyinə həvəsləndirir.

Qanunvericilikdə uşaq əməyinə sadəcə istisna vəziyyətlərdə yol verilir. Peşə və ümumi orta məktəblərin 14 yaşına çatan şagirdləri istehsalata hazırlanmaq məqsədilə dərsdən sonra asudə vaxtda səhhətlərinə ziyan verməyən yüngül işlər yerinə yetirərək, valideynlərin və yaxud onları əvəz etmiş şəxslərin razılığıyla işə qəbul oluna bilərlər.

Yaşı 18 yaşdan az işçiləri işə qəbul edən şəxslərin üzərinə müəyyən öhdəliklər də qoyulur. Bu işçilərlə əmək müqaviləsi bağlanarkən onların peşə və əmək vərdişlərinin çoxaldılması işəgötürən tərəfindən təmin olunmalı, bunun üçün müqavilələrdə əlavə öhdəlik və şərtlər nəzərdə tutulmalıdır.

Ölkəmizdə uşaq əməyindən istifadə halları əsasən Bakı, Gəncə, Lənkəran, Şəki və Sumqayıt kimi iri şəhərlərdə daha çox yayılmışdır.

Maraqlıdır ki, Azərbaycanda küçə uşaqlarının, istərsə də qanuni olmayan əməyə cəlb edilmiş uşaqların sayını dövlət orqanları, nə də ki, uşaqlarla işləyən qeyri-hökumət müəssisələri dəqiqləşdirə bilmişdir. Belə statistikanı aparmaq qeyri-mümkündür. Ancaq, hər hansı təxmini hesablamalar aparmaq mümkündür. Əksərən, beynəlxalq təşkilatlarda təxmini rəqəmlər qeyd olursa, onu ona vururlar. Ölkəmizdə təxminən 6000-ə yaxın küçə uşağı mövcuddur. Onların mumi sayı isə mövsümə uyğun olaraq dəyişir.

BƏT-in konvensiyasına əsasən, əgər uşaqlar əməyə cəlb edilirsə, onların əmək haqqı mütləq şəkildə böyüklərin əməkhaqqı ilə eyni məbləğdə ödənməlidir.

Uşaqlarla müqavilənin bağlanmaması isə onların hüquqlarını pozur. Azərbaycanda əməyə cəlb edilən uşaqların təxmini 90 %-i ilə əmək müqaviləsi bağlanmadan işləyir. Bu uşaqların əmək müqaviləsi haqqında heç təsəvvürləri yoxdur. Belə hallar kafe və restoranlarda daha geniş yayılmışdır.

Hazırda Azərbaycanın mövcud Konstitusiya, Ailə və Nikah Məcəlləsi, Əmək Məcəlləsi, "Uşaq hüquqları haqqında" qanunlarda azyaşlıların əmək fəaliyyəti üçün qadağalar və məhdudiyyətlər qoyulsa da, onların istismarı və onlara qarşı zorakılığın bütün növləri qadağan olunsa da, bu sahədə olan bəzi boşluqlar hələ də özünü göstərməkdədir. Çünki bu gün əlində xırdavat şəhər küçələrində alver edən, ayaqqabı təmizləyən, yollarda avtomobillərin güzgüsünü silən uşaqlara rast gəlirik. Bütün dünyada müşahidə olunan bu tendensiya təkcə qanunvericiliyə deyil, cəmiyyətin, valideynlərin və bu işlə məşğul olan QHT-lərin də üzərinə korporativ məsuliyyət qoyur. Amma əvvəlki illərdən fərqli olaraq bu gün Azərbaycanda uşaq əməyindən istifadə bir sıra ölkələrlə müqayisədə xeyli gücləndirilib.

İnsan alveri-zor tətbiq edərək hədə-qorxu və yaxud digər məcburetmə vasitələriylə, dələduzluq, aldatma, oğurlama yoluyla, təsir imkanlarından və yaxud zəiflik vəziyyətindən sui-istifadə edərək şəxsin istismar olunması məqsədi ilə cəlb olunması, saxlanılması, gizlədilməsidir.

Azərbaycanın "İnsan alverinə qarşı mübarizə barədə" 28.06.2005-ci il tarixli, 958-IIQ nömrəli Qanununa görə insan alverinin profilaktikası dövlət proqramları çərçivəsində, tədbirlər sistemi əsasında təşkil olunur.

İnsan alverinin profilaktikasına əsaəsn tədbirlər sisteminə aşağıdakılar aiddir:

1. İnsan alverinin qarşısının alınması, əsasən də gender aspektləri üzrə bir sıra tədqiqatların aparılması;

2. İnsan alverinə şərait yaradan bir sıra sosial problemlərin həllinə istiqamətləndirilmiş proqramların hazırlanması, həyata keçirilməsi;

3. Uşaq və qadınların sosial və hüquqi müdafiəsinin gücləndirilməsi;

4. İnsan alverinin potensial qurbanlarının faydalı əməyə cəlb olunması, onların məşğulluğunun təmin olunması;

5. İnsan alverindən zərər çəkən şəxslərin işə götürülməsi məqsədilə sahibkarların həvəsləndirilməsi;

6. İnsan alverinin potensial qurbanlarının arasında maarifləndirmə, təbliğat işinin təşkil olunması, onların dövlət tərəfindən təmin olunan müdafiə tədbirləri, dövlət tərəfindən yerinə yetirilən inzibati, cinayət-hüquqi, başqa tədbirlər haqqında məlumatlandırılması;

7. Uşaqların kimsəsizliyinə və baxımsızlığına şərait yaradan hal və səbəblərin aşkar olunmasına və aradan qaldırılmasına istiqamətlənmiş hüquqi, pedaqoji, sosial və başqa tədbirlər sisteminin təşkili və ondan səmərəli istifadə olunması;

8. Təhsildən yayınmış uşaqların aşkar olunması, onların tərbiyə olunması və təhsil almaqları məqsədilə tədbirlərin görülməsi;

9. Uşaq evləri, internat məktəbləri, təhsil müəssisələri və yetkinlik yaşına çatmayan uşaqların baxımsızlığının, hüquq pozuntularının profilaktikasını yerinə yetirən başqa orqan və müəssisələrdə proqramların hazırlanması və yerinə yetirilməsi;

10. İnsan alverinə qarşı mübarizəni yerinə yetirən orqanların əməkdaşları üçün tədris kurslarının təşkil olunması.

Prezidentin 24 iyul 2014-cü il tarixli, 667 saylı Sərəncamı ilə təsdiq edilmiş Azərbaycanda "İnsan alverinə qarşı mübarizəyə əsasən 2014-2018-ci illərdə Milli Fəaliyyət Planı"nda bu problemin qarşısının alınması üçün bir sıra tədbirlər sistemi həyata keçirilmişdir.

İnsan alverinin qarşısının alınmağı qanunvericilik daxilində xüsusi tədbirlər sistemi ilə təşkil olunur.

İnsan alverinin qarşısının alınması üçün uyğun sosial təbəqələr üzrə maarifləndirmə, təbliğat işinin təşkil edilməsi təmin olunur, insan alveri qurbanlarını gözləyən təhlükə, təmin olunan müdafiə tədbirləri, həyata keçirilən cinayət-hüquqi, inzibati və başqa tədbirlər haqqında məlumatlandırma həyata keçirilir (https://www.insanalveri.gov.az/?/az/menu/63/, 2019).

İnsan alveri cinayətlərindən ziyan çəkən şəxslərə, insan alverinin ehtimal edilən qurbanlarına, potensial qurbanlarına xidmət göstərən "qaynar xətt" barədə

ictimaiyyətin bilgiləndirilməsi davam etdiriləcək, xidmətdə işləyən operatorlara mütəmadi təlim keçirilməsi, həmin xətlərin təhlükəsizliyinin və ondan yararlanan şəxslərin konfidensiallığının və xidmətin təşkilati-texniki imkanlarının yüksəldilməsinin təmin edilməsi üçün uyğun tədbirlər görülməlidir.

İnsan alveri probleminin mahiyyəti və bunun qarşısının alınması haqqında metodik-tədris vəsaitlərinin düzəldilməsi, insan alverinə qarşı mübarizəyə aid elmi tədqiqatların aparılmasının təmin olunması və əldə edilən nəticələrdən mübarizə tədbirlərinin səmərəsini çoxaltmaq üçün istifadə olunması nəzərdə tutulur.

Uşaq əməyinə aid müvafiq beynəlxalq konvensiyalardan və Beynəlxalq Əmək Təşkilatının sənədlərindən yaranan öhdəliklərin yerinə yetirilməsi üçün tədbirlər gücləndirilməlidir.

Qanunsuz miqrasiya və məcburi uşaq əməyinin, həmçinin də, insan alverinin aradan qaldırılması, onun qurbanlarının, həmçinin də, potensial qurbanlarının müəyyən olunması məqsədi ilə müvafiq dövlət qurumlarının rəhbərlərinin iştirakı ilə yoxlama tədbirlərinin, monitorinqlərin reallaşdırılması, insan alverinə yol açan halların müəyyənləşdirilməsi və bunların aradan qaldırılması istiqamətində işlərin həyata keçirilməsi əmək miqrasiyasına nəzarətin gücləndirilməsi üçün tədbirlərin həyata keçirilməsi planlaşdırılır.

İnsan alverinin qurbanı olan uşaqların sığınacaqda yerləşdirilməsi və saxlanılması (Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "İnsan alverinin qurbanı olan uşaqların sığınacaqda yerləşdirilməsi, saxlanılması Qaydaları"nın təsdiq olunması barədə 2009-cu il 19 noyabr tarixli 180 saylı Qərarı, 2009):

1. Uşaqların sığınacaqda yerləşdirilməsi, saxlanılması konfidensiallıq, könüllülük, qurbanların mənafelərinin müdafiəsi, fərdi yanaşma, təhlükəsizliyin təmin olunması, qurbanlara hörmət, bərabərlik, təxirəsalınmaz yardım, yardımların pulsuz olaraq göstərilməsi prinsipləri əsasında yerinə yetirilir.

2. Uşağa yardım göstərildiyi zaman onun mənafeləri daim üstün tutulmalı, "Uşaq hüquqları barədə" Qanuna, "Uşaq hüquqları barədə" BMT-nin Konvensiyasına, həmçinin Azərbaycan Respublikasının başqa qanunlarına və

tərəfdarı olduğu beynəlxalq müqavilələrə müvafiq olaraq, uşağın hüquqlarının, onların qanuni maraqlarının qorunması məqsədilə bütün tədbirlər görülməlidir.

3. Sığınacaqda nəzərdə tutulan bütün tədbir və xidmətlər ilkin olaraq uşaqların ehtiyac və maraqlarına uyğunlaşdırılır.

4. Kimliyindən asılı olmadan, sığınacağa yerləşdirilən bütün uşaqlara münasibətdə ayrı-seçkiliyə yol verilmir.

5. Sığınacağa yerləşdirən uşağın yaşı, kamillik dərəcəsi nəzərə alınaraq, onların hüquqları, vəziyyətləri, göstəriləcək xidmətlərə aid məlumatlar uşaqların başa düşə biləcəyi formada verilməlidir.

6. Sığınacağa yerləşdirilən hər bir uşağa, onun valideynlərinə aid məlumatlar qanunvericilikdə nəzərdə tutulan qaydada konfidensial olaraq saxlanılmalıdır.

7. Uşaq sığınacaqda yerləşdirdiyi zaman onun mənafe və hüquqlarını müdafiə edən insanın iştirakı təmin olunmalıdır.

8. Uşaqların müdafiəsini təmin etmək üçün onlar müvəqqəti yaşamaq məqsədilə yaradılan sığınacaqda yerləşdirilirlər.

9. Sığınacağın rəhbəri uşaq haqqında təxirəsalınmaz tədbirlərin görülməsi çün sığınacağın yerləşdiyi ərazinin himayə və qəyyumluq orqanına, Yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi üzrə komissiyaya, Azərbaycan Respublikasının Ailə, Uşaq və Qadın Problemləri üzrə Komitəyə dərhal məlumat verir.

10. Şəxs sığınacağa qəbul olunarkən onun yaşını dəqiq müəyyənləşdirmək mümkün olmadığı zaman, ancaq həmin şəxsin 18 yaşdan az yaşı olduğu ehtimal olunduqda, o, uşaq hesab olunur.

11. Sığınacaqlarda uşaqlar ayrıca yerləşdirilirlər. Uşağın mənafeyi nəzərə alınmaqla, o, valideynləri və yaxud uşağın psixoloji vəziyyətinə müsbət təsir dən başqa şəxslərlə birlikdə yerləşdirilə bilər.

İnsan alverinin qurbanı olma halının azaldılması məqsədi ilə sosial tərəfdən həssas ailələrin və həmişəlik yaşayış yerindən məhrum şəxslərin oranın icra hakimiyyəti tərəfindən qeydiyyata alınması və müvafiq tədbirlərin görülməsinə görə aidiyyəti orqanlara istiqamətləndirilməsi, insan alveri qurbanlarının ictimai-faydalı

əməyə cəlb olunması, onların məşğulluğunun təmin olunması, insan alverindən zərər görmüş şəxslərin işə alınması üçün sahibkarların həvəsləndirilməsi istiqamətində uyğun tədbirlər görülməlidir.

Kütləvi informasiya vasitələrinin monitorinqini keçirməklə, insan alveri ilə əlaqəliliyi ola biləcək şübhəli təkliflərin önəminin öyrənilməsi və uyğun tədbirlərin görülməsi, həmçinin, ölkədaxili və beynəlxalq əməkdaşlıq yollarından istifadə etməklə, insan alverinə görə mübarizəni və sosial reabilitasiyanı reallaşdıran vətəndaş cəmiyyəti və dövlət orqanlarının əməkdaşları nümayəndələrinə görə xüsusi təlimlərin aparılması nəzərdə tutulmaqdadır.

Azərbaycan insan hüquqlarına hər zaman ciddi şəkildə yanaşır. Dövlət siyasətinin əsas yönlərindən biri uşaqların təhsilinin, sağlamlığının, boş vaxtının səmərəli keçirilməsinin təmin olunması, onlar üçün bütün sahələrdə eyni imkanların yaradılmasıdır.

Uşaqların azadlıq və hüquqlarının qorunması, keyfiyyətli təhsil, yüksək tibbi xidmətlərlə təmin edilməsi, qayğı ilə əhatə edilməsi, yüksək sosial və mənəvi mühitdə böyüməsi üçün vacib şəraitin təşkil edilməsi, hərtərəfli şəxsiyyət, layiqli vətəndaş olaraq formalaşması dövlətin uşaq siyasətinin əsas prioritet istiqamətlərini təşkil edir.

Ümumiyyətlə, ölkədə məcburi əməyə dair tam statistika yoxdur. Onun formalaşması istiqamətində ciddi işlərə başlanılmışdır. Bu gün Azərbaycanda məcburi əməyə cəlb olunma hallarının sayı azdır. Məcburi əməyə cəlb olunanlardan daha çox qeyri-rəsmi işçilərimiz var. Başqa sözlə desək, əmək müqaviləsi olmayan və ya işləməyən, vergi ödəməyən insanlar daha çoxdur.

Kənd yerlərində məcburi uşaq əməyi halları daha çox qeydə alınır. Bu xüsusilə ailə təsərrüfatlarına məxsus haldır. Ancaq bu rəsmi şəkildə qeydə alınmamışdır. Əlbəttə ki, bu cür faktların qeyd edilməsinə ciddi ehtiyac var.

Bu cəhətdən uşaq əməyinin uçotu çox vacib məsələdir. Ancaq texniki cəhətdən bu çox çətindir. Bir çox hallarda demək olar ki, mümkün deyil. Məlumat bazası yaratmaq bu sahədə çox çətin bir işdir. Qeydiyyat sistemində köməkçi funksiya yoxdur. Burada əsas məsələ valideynlərin, müəllimlərin, hüquq mühafizə

orqanlarının, əmək müfəttişliklərinin ciddi xəbərdarlıq etmədən fəaliyyətlərini gücləndirməkdir.

Bu gün yoxsul uşaqların istismarı bir sıra ölkələrdə ciddi problemdir. Etiraf etmək lazımdır ki, Azərbaycanda dilənçilikdən pul qazanan uşaqların sayı çoxdur. 2019-cu ilin ilk 9 ayında dilənən 973 azyaşlı Bakı Şəhər Baş Polis İdarəsinə gətirilmişdir. Bəzən bu cür uşaqlar valideyn himayəsindən məhrum qalmış uşaqlar olsa da, onların arasında valideynləri tərəfindən dilənməyə məcbur olunanlar da az deyil.

## 3.2. Dövlətin bu sahədə həyata keçirdiyi islahatlar və onların təkmilləşdirilməsi

Ölkəmizdə uşaqların sağlam və firavan həyatına, hüquqlarının qorunmasına yüksək səviyyədə xidmət edən dövlət siyasətinin əsasını xalqımızın ümummilli lideri Heydər Əliyev qoymuşdur. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəlişindən sonra, bütün sahələrdə olduğu kimi, uşaqların da hüquqlarının qorunması, uşaqların sosial müdafiəsinin gücləndirilməsi və hərtərəfli yardımın göstərilməsi istiqamətində genişmiqyaslı işlər görülmüşdür. O vaxtdan bəri uşaqların sağlamlığının qorunması və müasir, sivil şəraitdə tərbiyəsi üçün mühüm tədbirlər görülür.

Ölkəmizdəki uşaqların ən böyük himayədarı olan ümummilli lider Heydər Əliyev dövlət siyasətinin ən vacib sahələrindən birininin gənc nəsil üçün sağlam, firavan və xoşbəxt bir həyat olduğunu göstərmişdir. Azərbaycan Respublikası uşaq hüquqları ilə əlaqədar bir sıra beynəlxalq sazişlərə, habelə 1994-cü ildə BMT-nin Uşaq Hüquqları Konvensiyasına qoşulmuşdur.

Əlbəttə ki, ölkəmizin bu konvensiyaya qoşulması, uşaq hüquqlarına yüksək mənəvi dəyər verərək, onların normal sosial və mənəvi ruhda layiqli insanlar kimi böyümələri, problemlərin aradan qaldırılması və uşaqların ehtiyaclarının ödənilməsi üçün addımların atıldığını təsdiqlədi. Bundan əlavə, uşaqların hüquqlarını qorumaq üçün zəngin qanunvericilik bazası yaradıldı və Azərbaycan Respublikası Milli Məclisində uşaq hüquqlarının müdafiəsi ilə bağlı mühüm qanunvericilik aktları

qəbul etdi. Bu mənada "Uşaq hüquqları barədə", "Valideynlərini itirmiş, valideyn himayəsindən məhrum uşaqların sosial müdafiəsi barədə" qanunların qəbul edilməsini xüsusi qeyd etməliyik.

Uşaq hüquqları barədə qanunda:

1. uşaqların hüquq bərabərliyi;
2. uşaqların yaşamaq hüququ;
3. uşaqların inkişaf etmək hüququ;
4. uşaqların sağlmalığının mühafizəsi hüququ;
5. vətəndaşlıq və ad almaq hüququ;
6. azadlıq, şəxsi toxunulmazlıq hüququ;
7. tərbiyə almaq hüququ;
8. vacib maddi təminat hüququ;
9. söz və fikir azadlığı hüququ;
10. ailədə yaşamaq hüququ;
11. məlumat azadlığı hüququ;
12. səhhətinə, ümumitəhsil, peşə hazırııği səviyyəsinə, yaşına uyğun olaraq əmək hüququ;
13. ictimai təşkilatlarda birləşmək hüququ;
14. istirahət hüququ;
15. ləyaqət və şərəfinin müdafiəsi hüququ təsbit edilib.

Bu gün ölkəmizdə uşaqların hüquqlarının qorunması üçün müxtəlif tədbirlər görülür. Azərbaycan hökuməti bütün sahələrdə uşaqlar üçün geniş imkanlar yaradıb. Uşaqlar bu fürsətlərdən yaxşı istifadə etməli, bilik və bacarıqlarını genişləndirməli, tariximizi və mədəniyyətimizi yaxşı öyrənməlidirlər. Təəssüf ki, müəyyən ailələrdə neqativ hallar uşaqlara da təsir göstərir. Bunun aradan qaldırılması məqsədilə profilaktik tədbirlər görülür, uşaqlara hüquqi yardımlar göstərilir.

Uşaqların sağlam bir mühitdə böyüməsi üçün lazımi şəraitin yaradılması, valideyn himayəsindən məhrum olmuş uşaqlara təminat, dövlət qayğısı və uşaqlara qarşı zorakılığın qarşısının alınması kimi məsələlər daim diqqət mərkəzindədir. Uşaqlarla ünsiyyət onların problemlərinin həllində vacib amildir. Uşağın danışmaq

və qulaq asmaq hüququ təmin edilməlidir. Dövlət güclü olmaq və davamlı inkişaf etmək istəyirsə, uşaqlara lazımi diqqət yetirməlidir. Azərbaycanda uşaqların xoşbəxt və firavan böyümələri üçün yaradılan şərait və dövlət qayğısı təqdirəlayiqdir. Uşaqların rifah halının yaxşılaşdırılması, intellektual səviyyələrinin yüksəldilməsi dövlət siyasətinin əsas vəzifələrindən biridir. Ümumiyyətlə, ölkəmizdə uşaqların hüquqları ən yüksək səviyyədə konstitusiya qanunları ilə qorunur və dövlət uşaqların təhlükəsizliyinin və hüquqlarının qorunmasının təminatçısıdır.

Şübhəsizki, ölkəmizdə uşaqların hüquqlarının müdafisəi, onların sosial müdafiəsinin təkmilləşdirilməsi ilə əlaqədar tədbirlərdən danışarkən, Azərbaycan Respublikasının I vitse-prezidenti, İSESCO və UNESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın, Heydər Əliyev Fondunun bu istiqamətdə fəaliyyətini xüsusilə qeyd etmək lazımdır. Mehriban Əliyevanın rəhbərliyi altında yerinə yetirilən çoxsaylı proqramlar və layihələr uşaqlarımızın taleyində müstəsna şəkildə rol oynamışdır.

Fondun prioritet istiqamətlərindən biri uşaqların sağlam və təhsilli böyümələrinə, gələcəkdə ağıllı insan olmalarına diqqət yetirmək, onları qayğılarla əhatə etməkdir. Fəaliyyətinin son illərində Heydər Əliyev Fondu uşaqlarımız üçün çoxsaylı tibb müəssisələri, sənət mərkəzləri, idman və istirahət mərkəzləri tikmək üçün bir çox layihələr həyata keçirmişdir. Keçiriln tədbirlərdə müxtəlif hədiyyələrlə uşaqlarımızın qəlbinə sevinc, ürəklərinə xoş ovqat bəşx edilmişdir.

"İnternat məktəbləri və uşaq evlərinin inkişafı", "Azərbaycana yeni məktəb" proqramları, "Diabetli uşaqlara yüksək qayğı", "Təhsilə dəstək", "Talassemiyasız həyat uğruna" və s. layihələr səhiyyə, istərsə də təhsil sahəsində Mehriban Əliyevanın uşaqlarla əlaqədar fəaliyyətində stimulverici olmuşdur.

Azərbaycan Uşaq Fondu 1988-ci il aprelin 14-də yaradılıb. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra isə müstəqil şəkildə fəaliyyətini davam etdirib. Ölkəmizdə AUF-nun yaradılması ideyasının gerçəkləşməsində ümummilli liderimiz Heydər Əliyevin böyük xidmətləri olub. Bu ideya meydana gələndə görkəmli dövlət və siyasi xadim Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışıb və SSRİ hökumətinin

Azərbaycan Uşaq Fondunun yaradılmasına hərtərəfli dəstək verməsini təmin edib. Fond sədri bunu Heydər Əliyevin uşaqlara qarşı həmişə qayğıkeş və diqqətli olması ilə əlaqələndirdi.

Ölkəmizdə uşaqların ən böyük hamisi hesab edilən Prezident İlham Əliyevin, I vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə bu istiqamətdə əhəmiyyətli addımlar atılır və böyük işlər görülür. Prezident İlham Əliyevin Sərəncamına uyğun olaraq 2009-cu il respublikada "Uşaq ili" elan edilmişdir. etdiyi Heydər Əliyev Fondu tərəfindən uşaqlara qarşı dövlət qayğısının gücləndirilməsi, onların problemlərinin həllinə diqqətin çoxaldılması məqsədilə bir çox proqramlar həyata keçirilmişdir və keçirilməkdədir.

2009-cu il Azərbaycanda "Uşaq ili" elan olunması ölkədə uşaqlara verilən dəyərin, aparılan uşaq siyasətinin bariz nümunəsidir. Uşaq siyasəti dövlət siyasətinin tərkib hissəsidir və bu, Prezident İlham Əliyevin verdiyi qərarların hər birində özünü göstərib.

Uşaqların istismarı bütün dünyanı narahat edən məsələlərdən sayılır və bu cür halların qarşısının alınması məqsədilə mühüm tədbirlər görünür. Azərbaycan da bu proseslərdən kənarda deyil və ölkəmizdə insan alverinin qarşısının alınması, bu istiqamətdə maarifləndirici tədbirlərin görülməsi mühüm əhəmiyyət daşıyır. Ölkəmizdə insan alverinə qarşı mübarizə müvafiq dövlət və qeyri-dövlət təşkilatlarının əməkdaşlıq çərçivəsində aparılır və bu sahədə qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunundan və digər qanunvericilik aktlarından ibarətdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin başlıca vəzifəsi dövlətimizin ailə siyasətini həyata keçirmək, öz səlahiyyətləri daxilində vətəndaş və insan azadlıq və hüquqlarının, əsasən də qadın və uşaq hüquqlarının yerinə yetirilməsini təmin etmək, onların pozulmasının qarşısını almaqdır. Komitə qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində prioritet əhəmiyyət daşıyan məsələləri

nəzərdə saxlayaraq onların aradan qaldırılması istiqamətində məlumatlandırıcı və maarifləndirici tədbirlər həyata keçirir.

Komitə tərəfindən insan alveri problemlərin öyrənilməsi və onların aradan qaldırılması istiqamətində ardıcıl iş aparılır, mütəmadi olaraq tədbir və layihələr həyata keçirilir. 11 regionda Uşaq və Ailələrə Dəstək Mərkəzlərimiz fəaliyyət göstərir. Bu mərkəzlərin göstərdiyi hüquqi, sosial-psixoloji xidmətlərdən 30 min insan, xüsusilə, həssas və risk qrupuna daxil olan qadın və uşaqlar yararlanmışdır.

Komitə sədrinin 10 fevral 2012-ci il tarixli, 20 saylı Əmri ilə ölkə üzrə uşaqların təhsildən yayınaraq əmək fəaliyyətinə cəlb edilməsi hallarının monitorinqini həyata keçirən nəzarət qrupu yaradılmışdır. 2012-ci ildən etibarən Komitə regionlar üzrə uşaq əməyinin istismarı hallarının qarşısının alınması məqsədilə monitorinqlər həyata keçirir. Monitorinqlər nəticəsində uşaqların təhsildən yayınaraq əmək fəaliyyətinə cəlb edilməsi hallarının aşkarlanması, həmin uşaqların təhsilə cəlb olunması, belə uşaqların valideynləri ilə profilaktik işlərin təşkili, həmçinin təhsil müəssisələrinin müvafiq problemlə bağlı maarifləndirilmə işləri aparılmışdır. Həmin monitorinqlər hər il mütəmadi olaraq davam edilir (http://scfwca.gov.az/store/media/, 2019).

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 fevral 2014-cü il tarixli, 37 saylı Qərarı ilə "İnsan alverinin qurbanı olan uşaqların sosial reabilitasiyası, onların cəmiyyətə reinteqrasiyasına əsasən Proqram" təsdiq edilmişdir. Proqramın icrası ilə bağlı Komitə tərəfindən mütəmadi olaraq tədbirlər görünür. 2013-cü ildə Komitə ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında "Uşaq əməyinin istismarının qarşısının alınmasına əsasən Tədbirlər Planı (2013-2015-ci illər)" təsdiq edilmişdir. Tədbirlər Planında uşaq əməyinin istismarı, aşkar olunması yolları, bu hallarla üzləşmiş uşaqların hüquqlarının müdafiə olunması ilə bağlı uyğun dövlət orqanları əməkdaşlarının məlumatlandırılması, maarifləndirmə tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Tədbirlər planına müvafiq olaraq Komitə tərəfindən uşaq əməyi ilə bağlı Dövlət Əmək Müfəttişliyinin regional nümayəndələri, yetkinlik yaşına çatmayanlar ilə işləyən polis inspektorları üçün regional təlimlər keçirilmişdir.

Təlimlər zamanı uşaq əməyinin istismarı ilə mübarizədə ölkə qanunvericiliyi, beynəlxalq konvensiyalar, eləcə də problemin aradan qaldırılması yönündə beynəlxalq təcrübə ilə bağlı təqdimatlar edilmiş, problemlə bağlı müzakirələr aparılmış, təlim iştirakçıları mövzu ilə bağlı öz təklif və tövsiyələrini bildirmişdir.

İnsan alverinin qarşısının alınmağında ən gözəl vasitələrdən biri maarifləndirmədir. Bəşəri cinayətin təhlükəlilik səviyyəsinin yüksək olmağını nəzərə alaraq, insanların maarifləndirilməsi çox önəmlidir. Maarifləndirmə vasitəsiylə vətəndaşların insan alveri haqqında biliklərini artırmaq və onları bu sahədə məlumatlı etməklə bunun qarşısını ala bilərik.

Ailə, Uşaq və Qadın Problemləri üzrə Komitə tərəfindən Bakı şəhərinin bütün rayonları üzrə 124 məktəbdə, habelə məcburi köçkün və qaçqın məktəblərində və yetkinlik yaşına çatmayanlar üçün tərbiyə müəssisəsində gənc nəsli arasında ailə dəyərlərinin qorunub saxlanılması, uşaqların milli, mənəvi ruhda tərbiyə edilməsi, onlara sağlam həyat tərzinin aşılanması istiqamətində maarifləndirmə kampaniyası keçirilmişdir. Tədbir uşaqların baxımsızlığına şərait yaradan halların səbəbləri, aşkar edilməsi və aradan qaldırılması, uşaqlar arasında zorakılıq, uşaq intiharı, uşaq alveri, uşaq cinayətkarlığı, uşaq əməyinin istismarı, zərərli vərdişlər, erkən nigah hallarının qarşısının alınması və belə hallara qarşı mübarizənin gücləndirilməsi məqsədi ilə maarifləndirmə kompaniyası çərçivəsində həyata keçirilmişdir.

Təlim-tərbiyə və təhsil müəssisələrində uşaqların uşaq əməyi və insan alverinin istismarı ilə əlaqədar təhlükələrdən müdafiə edilməsi istiqamətində maarifləndirmək tədbirləri davam etdirilir. Xüsusilə də uşaq əməyinin istismarının yaşanmaması məqsədiylə özəl qurumlarda uyğun maarifləndirmə işləri və təbliğat aparılır. Bu tədbirlər Prezidentinin 24 iyul 2014-cü il tarixli 667 saylı Sərəncamıyla təsdiq olunmuş “İnsan alverinə qarşı mübarizəyə aid 2014-2018-ci illəri əhatə edən üçün Milli Fəaliyyət Planı”na əsasən “Təhsil və təlim-tərbiyə müəssisələrində uşaqların insan alveri və uşaq əməyinin istismarı ilə bağlı maarifləndirilməsi” layihəsi çərçivəsində təşkil edilmişdir. Bu tədbirlər çərçivəsində Ailə, Uşaq və Qadın Problemləri üzrə Komitə tərəfindən 2016-ci ildə Bakı şəhərində və regionlarda orta məktəblərin 8-11-ci sinif şagirdlərinin iştirakı ilə maarifləndirmə təlimləri

keçirilmişdir. İnsan alverinə qarşı mübarizə tədbirlərin davam etdirilməsi məqsədilə, Komitə tərəfindən insan alverinin, qanunsuz miqrasiyasının mahiyyəti və onların doğurduğu təhlükələr barədə ictimaiyyətin məlumatlandırılması məqsədilə Komitə tərəfindən "İnsan alverinin qurbanı olma", "Uşaqlarınızı qoruyun", "Qadın alveri" və "Özünü müdafiə etməyi bacar" adlı bukletlər hazırlanmış, əhali arasında paylanılmışdır.

Komitə tərəfindən həyata keçirilən bir sıra tədbirlərlə yanaşı insan alverindən və onun arzuolunmaz nəticələrindən bəhs edən "Satılmış həyat" adlı sənədli film çəkilmişdir. Qadınlara qarşı zorakılıq və insan alveri ilə mübarizəni gücləndirmək, ictimaiyyəti bu problem və onun həlli yolları haqqında ətraflı məlumatlandırmaq məqsədilə "Satılmış həyat" filmi televiziya kanallarında, həmçinin regional televiziya kanallarında da nümayiş etdirilmişdir (http://scfwca.gov.az/store/media/, 2019).

Araşdırmalara əsasən deyə bilərik ki, Azərbaycan insan alveri ilə mübarizə sahəsində son illərdə bir çox nailiyyətlər əldə edib. Ölkəmizdə həmin sahədə maarifləndirmə sistemi, mükəmməl qanunvericilik bazası, mövcuddur. Bununla əlaqəli beynəlxalq təşkilatlarla da əməkdaşlıq reallaşdırılır.

Tədbirdə qeyd olunub ki, Uşaq əməyindən istifadə uşağın hüquqlarının kobudcasına pozulmasına səbəb olmaqla, uşağı təhsildən məhrum edir, onun fiziki-mənəvi baxımdan inkişafına zərbə vurur. Ölkəmiz də uşaq əməyindən istifadəyə qarşı fəal formada siyasət aparan ölkələrdəndir. Ötən dövr ərzində Azərbaycan BƏT-nin "Uşaq hüquqları barədə" Konvensiyasına, "Uşaqların yaşaması, onarın müdafiəsi, inkişafının təmin olunması haqqında" Bəyənnaməsinə, başqa müvafiq beynəlxalq sənədlərə qoşulmuşdur.

Əsası Ümummilli liderimiz olan Heydər Əliyev tərəfindən qoyulmuş, bu gün isə İlham Əliyev tərəfindən davam etdirilən dövlət uşaq siyasəti milli strategiya kimi formalaşmaqdadır. Xüsusilə, son illər uşaqların sağlamlığının möhkəmləndirilməsi, onların tələbatının müasir tələblər səviyyəsində təmin olunması və təlim-tərbiyəsi məqsədi ilə mühüm tədbirlər həyata keçirilib və keçirilməkdədir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Hazırda bir çoxları düşünür ki, uşaq əməyi inkişaf etməyən ölkələrdə daha çox aktualdır. Reallıqdaysa uşaq əməyi ucuz olması səbəbiylə ondan istifadə etmək daha sərfəli hesab olunur. Keçmiş SSRİ respublikalarında uşaq əməyi ilə əlaqədar ən çox adı hallanan Özbəkistandır. Bəzi Britaniya şirkətləri burada pambıq istehsalında uşaq istismarından istifadə olunduğu üçün bu Özbəkistandan pambıq liflərinin alınmağına veto qoymaq istəyiblər.

Hal-hazırda 12 iyun - Beynəlxalq Uşaq İstismarına Qarşı Mübarizə Günü olaraq qeyd dilir. Beynəlxalq Əmək Təşkilatının 1 yanvar 1970-ci ildə qəbul edilən konvensiyası yaşı 15 yaşdan az olan uşaqların işə qəbul edilməsini qadağan edir. Ancaq, BƏT-in qiymətləndirməsinə əsasən, inkişaf etməkdəki ölkələrdə yaşı 5-14 yaşarası olan uşaq qrupunda olan təxminən 250 milyon uşağın əməyindən istifadə edilir. Onların təxminən 120 milyonu tam iş günü, qalanı isə natamam iş günüylə əmək fəaliyyəti ilə məşğuldur.

Dünyada uşaqların 30 milyonu evsizdir, 650 milyon uşağın sığınacaq yeri yoxdur.

Dünyada uşaqların 500 milyonu yoxsuldur, 250 milyon uşaq ac qalır, 400 milyonu təmiz içməli su tapmır, 300 milyonu biliyə, televizora, radio və qəzetlərə həsrətdir, 280 milyonu tibbi xidmətlərdən faydalana bilmir. 100 milyondan çox uşaq təhsilsizdir.

150 milyon uşaq təhlükəli, sağlamlığına ziyan verəcək ağır işlərdə çalışır. Onların 75 milyonunun daha təhlükəli işlərə məşğul olduğu üzə çıxıb.

Dünyada müxtəlif xəstəliklər üzündən hər gün 10 minə qədər uşaq həyatını itirir. İnkişaf etmiş ölkələrdə uşaq ölümü 3-4, inkişaf etməkdə olan ölkələrdə isə 10 promildən yüksəkdir.

Azərbaycanda 18 yaşadək uşaqlar ölkə əhalisinin 30 faizini (3 milyondan çox) təşkil edir. Hər il 150 mindən artıq körpə dünyaya gəlir. İldə 5 yaşadək təxminən 9 minə yaxın (UNİCEF) uşaq ölür.

Ölkəmizdə 20 min uşaq valideyn himayəsindən məhrumdur. Qeyri-rəsmi məlumata əsasən isə ölkədə 50 mindən çox sahibsiz uşaq var. Sahibsiz uşaqların demək olar ki, təxminən 50 faizi uşaq evlərində məskunlaşıb.

Azərbaycan Hökuməti uşaq hüquqlarının müdafiəsində gələcəkdə görüləcək tədbirləri indidən müəyyən etmişdir. Bununla əlaqədar, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsasən, Uşaq Strategiyası hazırlanıb, təsdiq üçün təqdim edilmişdir. Uşaq Məcəlləsi ilə bağlı müəyyən iş görülməkdədir.

İnzibati yollarla uşaq əməyini aradan qaldırmaq mümkün deyil. Hindistanda tanınmış oyuncaq fabriki uşaq əməyindən yararlanırdı. Buna qarşı mübarizə aparıldı və fabrik bunun qarşısını aldı. Sonra edilən müşahidələr göstərdi ki, həmin uşaqların çox hissəsi və onların ailələri acından ölüblər. Elə azyaşlı var ki, iş görməsə, ya özü, ya ailəsi aclıq içində olacaq. Ona görə də kasıb azyaşlılara dövlət müxtəlif müavinətlər ayırmalıdır. Uşaq əməyinin qarşısının alınmasının yaxşı yolu ünvanlı sosial yardımdır.

Maarifləndirmə işəgötürənlər və valideynlər arasında aparılmalıdır. Buna görə icra orqanları yanında azyaşlılarla iş üzrə komissiya olduqca məsuliyyət daşıyır. Həmin komissiya Sovet vaxtından qalmışdır.Onların fəaliyyəti təsirsiz və məhduddur. Həmin komissiyalar işləmir. Təhsil Nazirliyinin qəyyumluq orqanı və qəyyumluq və psixomedikal pedaqoji qurumları var. Bu komissiyaları birləşdirmək və bunun yerinə uşaq müdafiəsi şöbəsi açmaq lazımdır. Uşaqların müdafiəsi şöbələri bütün rayonlarda fəaliyyət göstərməlidir və birinci növbədə Təhsil Nazirliyinin tabeliyindədir.Ona görə ki, müəllimlər həftə ərzində 6 gün olmaqla, gündə 5 saat uşaq ilə əlaqədə olurlar. Müəllim ilk olaraq uşağındakı dəyişiklikləri görür. Uşaq təhsilə qaçırsa, vəziyyət doğurdan da ciddidir.

"Azyaşlı uşaqlar arasında hüquq pozuntularının və baxımsızlığın profilaktikası" haqqında 2006-cı ildə qəbul edilmiş qanuna əsasən, Azərbaycanda uşaq polisi yaradılmalıdır. Ancaq ölkədə uşaq polisi günümüzədək yaradılmayıb. Azərbaycanda uşaq polisinin günümüzədək yaradılmamağı isə küçə azyaşlılarına qarşı effektiv mübarizənin qarşısını almaqla yanaşı, uşaqlarla bağlı yaranan hüquqpozmaların, həmçinin, uşaq əməyinin istismarının da tamamilə

rəsmiləşməməsinə səbəb olur. Hesablamalara görə, gənclər hər il 600-dək cinayət işi törətməkdədir. Onların arasında oğurluq, zorlama, quldurluq, qəsdən bədənə zərər yetirmə və narkotiklə əlaqəli cinayətlər çoxluq təşkil etməkdədir. Polisdə isə 3500-ə qədər uşaq qeydiyyatdan keçib. Onların 40 faizi çətin tərbiyə olunan uşaqlardır. Rəsmi statistikaya əsasən, il ərzində 15-20 uşaq cinsi zorakılığa məruz qalır. Əslində isə həmin rəqəm 20-30 dəfə çoxdur. Cinsi zorakılığa məruz qalanlar arasında qızlar çoxluq təşkil edir.

Uşaqların asudə vaxtlarından istifadə etmələri üçün dərnəklərin demək olar ki, hamısı pulludur. Bəzi hallarda ailələrdə valideynlər uşaqların asudə vaxtının səmərəli təşkili üçün pul xərcləmək istəmirlər, yaxud buna imkanları olmur. Belə vəziyyətlərddə azyaşlılar həmin vəsaiti qazanmaq həvəsinə düşür.

Belə vəziyyətdə bir çox situasiya əmələ gəlir:

1. pul qazanılır, nəzərdə tutulan təyinat üzrə sərf olunur;

2. pul qazanıldıqdan sonra xərclənməsi istiqaməti dəyişilir. Cəlbedici və yeni bir istiqamət (alkoqollu içkilər, siqaret, narkotik) tapılır;

3. valideyn pul qazanıldıqdan sonra pulun uşağın deyi, ailənin tələblərinə sərf edilməsini məqbul sayır. Bu tələb müəyyın hallarda ailədə uşaq və valideyn arasında uçurumlar yaradır.

Hər bir halda uşaqların pul qazanmaq məcburiyyətində qalmaqları arzuolunan hal deyil. Uşaqların əmək fəaliyyətinə sərf etdikləri vaxtın səmərəli şəkildə keçirilməsinə diqqət yetirilməlidir. Əks halda asudə vaxtdan səmərəli formada istifadə etmə istəyi uşaqların arzuolunmayan yola düşməsiylə nəticələnə bilər.

Bildiyimiz kimi, Azərbaycanda əhalinin sosial rifahın artırmaq üçün dövlət ehtiyacı olan insanlara Ünvanlı Sosial Yardım proqramı fəaliyyətdədir. Bu proqram çərçivəsində ilk növbədə fikir verilməlidir ki, uşaq əməyindən istismar edənlər, uşaqları dərsdən uzaqlaşdırıb işləməyə vadar edən hansı ailələrdir. Aydınlaşdırılmalıdır ki, bu uşaqlar həqiqətən ailənin minimum səviyyədə yaşamaq şəraiti olmadığına görə, yoxsa tamah ucbatından işlədirlər. Azərbaycanda bu hal da geniş yayılıb ki, ailə uşağın ehtiyaclarını qarşılaya bilir, amma valideynlər tamahkarlıq məqsədi ilə uşağı erkən yaşlarından işlədirlər. Bu zaman həmin

validеynə qarşı tədbirlər görülməlidir. Hətta lazım gələrsə belə insanlar valideynlik hüququndan da məhrum ediləməlidirlər. Bu məsələlər bir neçə təşkilatın diqqət mərkəzində olmalıdır. Əgər aydınlaşsa ki, o uşaqların ailələrinin vəziyyəti çətindir, bu zaman həmin ailələrə Ünvanlı Sosial Yardım ayrılmalıdır. Sonra da nəzarət olunmalıdır ki, o ailələrin uşaqları dərsə getsinlər və dərsdən yayınma halları olmasın.

Ölkəmizdə uşaqlara qayğı və diqqət nə qədər yüksək olsa da etiraf etməliyik ki, bu sahədə problemlər yetərincədir. Həqiqətən də uşaqları gələcəyimiz hesab ediriksə və gələcəkdə potensial cinayətkarla qarşılaşmaq istəmiriksə, indidən bu barədə dərindən düşünmək lazımdır.

Uşaqları qorumaq həm dövlətin, həm də cəmiyyətin vəzifəsidir. Gələcəyimizi sağlam böyütməyə məcburuq, Beynəlxalq bəyannamədə deyildiyi kimi- “Bəşəriyyət məcburdur ki, uşaqları ən yaxşı şeylərlə təmin etsin”...

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

### Azərbaycan dilində

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "İnsan alverinin qurbanı olan uşaqların sığınacaqda yerləşdirilməsi, saxlanılması Qaydaları"nın təsdiq olunması barədə 2009-cu il 19 noyabr tarixli 180 saylı Qərarı, (2009), Bakı

2. Çələbiyev Nuralı Zərbalı, (2005) "Uşaq psixologiyası", Bakı, "Elm", 253 səh.

3. Əhmədova Gülnarə Allahverdi, (2011) "Uşaq əməyi hüquqi məsuliyyət yaradır", Bakı, "Kaspi", 458 səh.

4. Quliyev Nofel Zahid, (2011) "Uşaqların 20-25%-nin əməyi istismar olunur", Bakı, "Olaylar", 161 səh.

5. Məmmədov Ələkbər Məmmədəli, (2008) "Uşaq əməyinin ləğv edilməsi: işəgötürənlərin yaxşı təcrübələri", Bakı, "ASSA", 134 səh.

6. Mənsimov Emin Tərlan, (2013) "Gələcəyimiz olan uşaqları qoruyaq", Bakı, "Azərbaycan" qəzeti, 426 səh.

7. Səfərli Aygün Səfər, (2016) "Azyaşlı uşaqların istismar edildiyi ölkələr", Bakı, "Müsavat" qəzeti, 530 səh.

### İngilis dilində

1. Bourdillon M.T., Levison D.T., Myers W.S., (2010) "Rights and Wrongs of Children's Work", Rutgers University Press, 243 pp.

2. Calva L.F., Luis F.D., (2001) "Child Labor: Myths, Theories and Facts", Journal of International Affairs, Vol. 55, № 1, 778 pp.

3. Cigno A.S., Rosati F.C., (2005) "The Economics of Child Labour", Oxford University Press, 232 pp.

4. Gartner T.A., Manfred M.F., (2011) "Labor Market Integration and Its Effect on Child Labor", Atlantic Economic Journal, Vol. 39, № 2, 684 pp.

5. Lal R.K., (2009) "Sacrificial Lambs Globalization: Child Labor in Twenty-First Century", Denver Journal International Law and Policy, Vol. 37, № 3, 279 pp.

6. Lessler S.D., (2010) “A Cross-National Study of Child Labor and Its Determinants”, The Journal of Developing Areas, Vol. 44, № 1, 241 pp.
7. Neil M.N., (2004) “Universal Moral Principles and the Law: The Failure of One-Size-Fits-All Child Labor Laws”, Houston Journal of International Law, Vol. 27, № 1, 356 pp.
8. Thomas A.E., (2008) “Conquistadores de la Calle: Child Street Labor in Guatemala City”, University of Texas Press, 152 pp.

**İnternet resursları**

1. http://scfwca.gov.az/store/media/, 2019
2. http://sosial.gov.az/, 2018
3. http://sosial.gov.az/post/2471, 2019
4.http://strateq.az/%C6%8Fsas/6171/usaq-%C9%99m%C9%99yi-il%C9%99-5.bagli-color-red-bmt-d%C9%99n-d%C9%99hs%C9%99tli-statistika.html, 2018
6. http://www.maliyye.gov.az/, 2019
7.https://azertag.az/xeber/Iyunun_12_si_Umumdunya_Usaq_Ameyine_Qarsi_Mubarize_Gunudur-1171683, 2018
8. https://ourworldindata.org › child-labor, 2018
9. https://www.bbc.com/azeri/international-44300749, 2018
10. https://www.britannica.com › topic › child-labour, 2017
11. https://www.economy.gov.az/, 2019
12. https://www.edu.gov.az/, 2019
13. https://www.ilo.org › child-labour › lang-en, 2017
14. https://www.insanalveri.gov.az/?/az/menu/63/, 2019
15. https://www.stat.gov.az/, 2019
16. https://www.unicef.org/csr/css/CRBP_in_Azerbaijani_low_res.pdf, 2019
17. https://www.worldvision.org › child-labor-facts, 2019

## Cədvəllərin siyahısı

Cədvəl 1: Uşaq məşğulluğu, 2019..........................................................................27

Cədvəl 2: İşləyən uşaq sayı, 2019..........................................................................28

Cədvəl 3: Dünyada işləyən uşaq hesabı, 2019.......................................................28

Cədvəl 4: İşləyən uşaq faizi, 2019..........................................................................29

Cədvəl 5: Regionlar və təhlükəli işlər üzrə uşaq əməyinin bölgüsü.......................45

## Şəkillərin siyahısı

Şəkil 1: BƏT statistikasına əsasən qonuşu ölkələrdə uşaq əməyindən istifadə, 2018 (%-lə)...............................................................................................................................18

Şəkil 2: Uşaq əməyindən istifadə, 2018..................................................................23

Şəkil 3: Regionlar üzrə uşaq əməyinin yayılması, 2016.........................................25

## Qrafiklərin siyahısı

Qrafik 1: Uşaqların orta həftəlik iş saatları...........................................................41